QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 184 (5415) 11 **oktyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dayanıqlı inkişafa söykənən tərəqqi faktoru

*<u>İlham Əliyev:</u> “Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük”*



Səh 2


**Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsinə ehtiram**



3

**Sebastian Bussua: “Azərbaycan güclü dövlətdir, öz torpaqlarını hər vasitə ilə azad etməyə hazırdır”**



4

**Zakir Həsənov Belarusun Hərbi Akademiyasında olub**



3

**Musa Quliyev: Azərbaycan iqtisadiyyatının dinamik inkişafı uğurlu siyasətin nəticəsidir**



4

**“Doqquz ayda Azərbaycandan qeyri-neft ixracı 1 milyard 69 milyon dollar təşkil edib”**



6

**BMT tribunasına hörmətsizlik: Serj Sarkisyan yalanları ilə dünyanı aldadır**



11

12

**Heydər Əliyev Beynəlxalq Aeroportunda Azad İqtisadi Zona yaradılacaq**




5

**Azərbaycan səfiri Pakistanın Baş naziri ilə görüşüb**



16

**“Qızıl top” mükafatına namizəd 30 futbolçunun adı açıqlanıb**



# Dayanıqlı inkişafa söykənən tərəqqi faktoru

## *İlham Əliyev: "Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük"*

***Artıq 26 ildir ki, Azərbaycan xalqı ictimai-siyasi və sosial-iqtisadi həyatının yeni bir dövrü-nü-müstəqillik dövrünü yaşayır. Bu dövr ərzində ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr isə ölkəmizin qüdrətini daha da artırmaqdadır. Milli inkişaf modelinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların ardıcıl qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, həmçinin, hüquqi dövlət quruculuğu yolunda atılan addımlar və həyata keçirilən tədbirlər Azərbaycanın dinamik inkişafını təmin edən faktorlar hesab edilir.***



### Azərbaycan uğurlu və hərtərəfli inkişaf yolunda

Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ölkəmizin uğurlu və hərtərəfli inkişafından danışaraq, bildirib ki, bütün sahələrdə dinamik inkişaf təmin edilib: "İlin doqquz ayı arxada qalır. Bu doqquz ayda ölkəmiz uğurla və hərtərəfli inkişaf etmişdir. Bütün sahələrdə dinamik inkişaf təmin olunmuşdur. Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir".

Dövlət başçısı, onu da vurğulayıb ki, qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb: "Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Bu, son illərdə apardığımız siyasətin nəticəsidir. Çünki qeyri-neft sektorunun inkişafı bizim əsas prioritetimizdir və 2,5 faiz artan qeyri-neft iqtisadiyyatımız həm uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır".

Ölkə başçısı müşavirədə, qeyri-neft sektorunun sənaye və kənd təsərrüfatı sahəsinin hərtərəfli inkişafına da toxunub: "Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz artmışdır. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir. Bildiyiniz kimi, son illər kənd təsərrüfatında çox böyük inkişaf var, böyük investisiyalar qoyulur. Kənd təsərrüfatının hərtərəfli inkişafı dövlət prioritetidir və bu sahədə də nəticələr özünü göstərir. Kənd təsərrüfatı 2,8 faiz artmışdır".

Dövlət başçısı qeyd edib ki, xarici ticarət dövriyyəmiz 7 faiz artıb: "Burada da ixrac idxalı böyük fərqlə üstələyir. Hər bir inkişafın göstəricisi, o cümlədən, xarici ticarətin tarazlığından asılıdır. Bizdə isə ilin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Əminəm ki, ilin sonuna qədər bu rəqəm daha da artacaq. Əlbəttə, bu, bizim həm iqtisadi uğurlarımızı əks etdirir, eyni zamanda, milli valyutamız manatın məzənnəsinə çox müsbət təsir göstərir. Valyuta bazarının tənzimlənməsi istiqamətində, əlbəttə ki, bu, çox böyük imkanlar açır. Eyni zamanda, bu, bizim uğurlu inkişafımızın təzahürüdür. İxracımız idxaldan 4,4 milyard dollardan çoxdur. Baxmayaraq, dünya bazarlarında neftin qiyməti hələ də aşağı səviyyədədir, bu il biz qarşıya məqsəd qoymuşduq ki, valyuta ehtiyatlarımızı artıraq. Çünki bu, bizim iqtisadi və siyasi müstəqilliyimizin əsas şərtlərindən biridir. Xərclərimizin də artmasına və ölkə qarşısında duran vəzifələrin də çoxalmasına baxmayaraq, biz çalışırıq ki, bütün vəzifələri icra edək. Bunu etmək üçün, əlbəttə ki, maliyyə resursları lazımdır. Valyuta ehtiyatlarımızdan qənaətlə istifadə etməyimiz, eyni zamanda, düzgün investisiya proqramımızın uğuru, əlbəttə, imkan verib ki, biz valyuta ehtiyatlarımızı artıraq".

### "Bizim siyasətimiz uzunmüddətli siyasətdir"

Dövlət başçısı müşavirədə ilin 9 ayında Azərbaycanın valyuta ehtiyatlarının artdığını, hazırda bu rəqəmin 42 milyard dollar səviyyəsində olduğunu bildirib: "İlin əvvəlindən valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıb. Bizim siyasətimiz uzunmüddətli siyasətdir. Biz ölkəmizin gələcəyi, uzunmüddətli, dayanıqlı inkişaf haqqında düşünürük. Ona görə, bir daha qeyd etmək istəyirəm ki, valyuta ehtiyatlarımız, ümumiyyətlə, iqtisadi imkanlarımız müstəqilliyimizin əsas şərtlərindən biridir".

Prezident qeyd edib ki, bu gün Azərbaycan özünü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilib: "Müstəqil siyasət aparan ölkə kimi tanınırıq. Əlbəttə ki, bunun təməlində güclü siyasi iradə, xalq-iqtidar birliyi, bir çox başqa amillər dayanır. Onların arasında iqtisadi müstəqillik xüsusi yer tutur. Ona görə, 4,5 milyard dollar həcmində artan valyuta ehtiyatlarımız, hesab edirəm ki, 9 ayın ən uğurlu nəticələrindən biridir".

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu ilin doqquz ayında da ölkədə iqtisadi islahatlarla bağlı ciddi addımlar atılıb və sahibkarlara hərtərəfli şərait yaradılıb: "Strateji yol xəritələrinin inkişafı təmin edilib, investisiya təşviqi mexanizmi işə düşüb. İndiyədək 200-dən artıq investisiya təşviqi sənədi verilib ki, bunun da nəticəsində, Azərbaycana özəl sektor tərəfindən 1,7 milyard manat sərmayə cəlb edilib. Bununla yanaşı, ölkədə ixracın təşviqi mexanizmi işə düşüb". Bu ilin Azərbaycan tarixində ciddi iqtisadi islahatlar ili kimi qalacağını deyən Prezident İlham Əliyev bildirib ki, 140 ölkə arasında rəqabətliliyi əks etdirən Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə, ölkəmiz 37-ci pillədən 35-ə qalxıb və MDB məkanında liderliyini qoruyur.

### *Rəsmi xronika*

Prezident İlham Əliyev "Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması ilə bağlı Fərman imzalayıb.

### Dövlət-sahibkar münasibəti daha da dərinləşir

Hər zaman sahibkarların yanında olan və onlara öz dəstəyini nümayiş etdirən dövlət başçısının son zamanlar imzaladığı son sənədlər və çıxışlarını sahibkarlığın inkişafında yeni mərhələnin başlaması barədə anonsunun reallaşması kimi də qiymətləndirmək olar.

Son illərdə Prezident İlham Əliyevin "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Bu baxımdan, sözügedən müşavirədə də Prezident İlham Əliyev ölkəmizdə sahibkarlığın inkişafı ilə bağlı görülən işlərə və iş adamlarına verilən güzəştli kreditlərə toxunaraq, bildirib ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu ilin sonunadək kreditləşməni təmin etməlidir.

Əlbəttə ki, bütün bu uğurlu nəticələr və iqtisadi göstəricilər, onu deməyə əsas verir ki, görülən işlərin sürəti bundan sonra daha da artırılacaqdır.

Göründüyü kimi, dünyada baş verən iqtisadi böhrana və neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Prezident İlham Əliyev Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirləri davam etdirir. Mövcud qlobal iqtisadi böhran şəraitində vətəndaşların normal yaşaması üçün dövlət tərəfindən bütün lazımi tədbirlərin görülməsi isə, heç şübhəsiz, Azərbaycanda əhalinin həyat şəraitinin yüksəldilməsi istiqamətində müntəzəm addımların atılmasını bir daha sübut edir.

**RƏFİQƏ KAMALQIZI**

# Görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsinə ehtiram

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 10-da İkinci Fəxri xiyabana gələrək görkəmli şərqşünas alim Aida İmanquliyevanın doğum günü münasibətilə məzarını ziyarət edib, xatirəsini ehtiramla anıb. AZƏRTAC xəbər verir ki, Mehriban Əliyeva Azərbaycanda şərqşünaslıq elminin inkişafında misilsiz xidmətləri olan alimin məzarı önünə gül dəstələri düzüb.***



Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə güllər qoyub.

Daha sonra Mehriban Əliyeva görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsini anıb, məzarı üzərinə tər güllər düzüb.

Qeyd edək ki, müasir ərəb ədəbiyyatının ən ciddi tədqiqatçılarından biri olan Aida İmanquliyevanın adı tarixə ilk müsəlman qadın şərqşünas və ərəbşünas alim, ərəb mühacir ədəbiyyatının tədqiqatçısı, Azərbaycan ərəb ədəbiyyatşünaslığı məktəbinin yaradıcısı kimi düşüb. Uzun illər Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru işləmiş Aida xanım öz istedadı və əməksevərliyi sayəsində keçmiş Sovet İttifaqında müasir ərəb ədəbiyyatı üzrə dəyərli mütəxəssislərdən biri kimi tanınıb. Aida İmanquliyeva özündən sonra zəngin elmi irs qoyub, fundamental tədqiqatları ilə dünya şərqşünaslığını xeyli zənginləşdirib. Professor Aida İmanquliyeva çox az adama nəsib olan elmi istedadı, təşkilatçılıq qabiliyyəti və pedaqoji fəaliyyəti özündə birləşdirən alimlərdən biri olub.





## Zakir Həsənov Belarusun Hərbi Akademiyasında olub

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikasının Hərbi Akademiyasında olub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirə Akademiyanın strukturu, fəaliyyəti barədə brifinq təqdim edilib. Hərbi təhsil müəssisəsinin əməliyyat-taktiki və strateji səviyyəli müxtəlif fakültələri ilə tanış olan nümayəndə heyətinə silah, hərbi texnika və digər döyüş vasitələri nümayiş etdirilib, onların təyinatı və imkanları barədə ətraflı məlumat verilib.





# Sebastian Bussua: "Azərbaycan güclü dövlətdir, öz torpaqlarını hər vasitə ilə azad etməyə hazırdır"

***Ötən həftə bir qrup fransalı media nümayəndəsi Azərbaycanda səfərdə olub. AZƏRTAC xəbər verir ki, oktyabrın 10-da "cnpnews" portalında siyasi elmlər üzrə tədqiqatçı Sebastian Bussuanın səfərin yekunları ilə bağlı "Dağlıq Qarabağın işğalı: Azərbaycan hələ də münaqişənin sülh yolu ilə həllini axtarır" sərlövhəli məqaləsi dərc edilib.***




Müəllif yazır ki, dünyanın heç bir dövləti işğalçı Ermənistan tərəfindən yaradılan qondarma "Dağlıq Qarabağ respublikası"nın müstəqilliyini tanımır. Təcavüzkar Ermənistandan fərqli olaraq, Azərbaycan regional inteqrasiya yolu ilə gedir, bölgənin güclü dövlətləri ilə sabit münasibətlər qurmaqla, öz diplomatiyasını qonşu dövlətlərlə uzlaşdırmaqla münaqişənin sülh yolu ilə həllinə çalışır.

Erməni diasporunun bu istiqamətdə apardığı təbliğatın uzun müddətdir davam etdiyini vurğulayan tədqiqatçı hazırda münaqişə ilə bağlı vəziyyətin Azərbaycanın xeyrinə getdikcə dəyişdiyini vurğulayır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının məlum qətnamələrinin tələblərini xatırladan Sebastian Bussua Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdən tamamilə, dərhal və qeyd-şərtsiz çıxarılmalı olduğunu diqqətə çatdırır. O, münaqişə nəticəsində Azərbaycana 800 milyard manatdan artıq ziyan dəydiyini də qeyd edir.

Sebastian Bussua Fransa prezidentləri Nikola Sarkozi və Fransua Ollandın Azərbaycana səfərləri və səsləndirdikləri bəyanatları yada salır. Bakıdakı Fransız Liseyinin açılışında Prezident Fransua Ollandın Fransa ilə Azərbaycan arasında tarixi bağların olduğu barədə söylədiyi fikirləri xatırladır.

Müəllif Qarabağın tarixinə ətraflı nəzər salır, regionun tarixən Azərbaycana məxsusluğunu göstərir, Ermənistan qoşunları tərəfindən 1992-ci il fevralın 26-da Xocalıda soyqırımı törədildiyini, 600-dən artıq günahsız insanın öldürüldüyünü qeyd edir. Məqalədə deyilir ki, ataşkəsdən sonra Ermənistan hələ də o torpaqlardadır, Azərbaycanın işğal edilmiş əraziləri viran edilib, on minlərlə insan öldürülüb, 800 minə yaxın azərbaycanlı öz doğma torpağında məcburi köçkün vəziyyətinə düşüb.

Fransalı tədqiqatçı Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf əraziləri işğal etməsinin səbəbləri kimi qonşu dövlətlərin bu məsələdə marağını və dəstəyini önə çəkir, 1990-cı illərin əvvəllərindəki vəziyyətlə bugünkü vəziyyəti müqayisə edərək yazır: "Bu gün vəziyyət tam fərqlidir. Azərbaycan qüdrətli və varlı ölkəyə çevrilib. Diaspordan başqa heç nəyi olmayan Ermənistandan fərqli olaraq, Azərbaycan güclü dövlətdir, enerji təhlükəsizliyini təmin edib və torpaqlarını hər vasitə ilə azad etməyə hazırdır".

# Musa Quliyev: Azərbaycan iqtisadiyyatının dinamik inkişafı uğurlu siyasətin nəticəsidir

***Oktyabrın 9-da Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev bir daha bəyan etdi ki, ölkəmizin strateji inkişaf xətti doğrudur və bu, özünü daha qabarıq şəkildə büruzə verir.***



Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.

Musa Quliyev bildirib ki, Azərbaycan artıq neftdən asılı olmayan bir ölkə kimi inkişaf edir. Son illərdə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi və Azərbaycanda neftdən asılılığın aradan qaldırılması müşahidə edilir. Dövlətimizin başçısının qeyri-neft sektorunun əsas dörd istiqaməti üzrə - kənd təsərrüfatı, turizm, nəqliyyat və informasiya-kommunikasiya texnologiyaları istiqamətində qarşıya qoyduğu vəzifələr müvafiq qurumlar tərəfindən həyata keçirilir. Ötən doqquz ay ərzində Azərbaycanın ümumi daxili məhsulu 2,4 faiz artıb. Digər sahələrdə, xüsusilə kənd təsərrüfatı, sənaye sahələrində də artım var. Bütün bunlar onu göstərir ki, Azərbaycanın hərtərəfli inkişafı təmin edilib. Prezident İlham Əliyev kənd təsərrüfatının emal sənayesinin inkişafının müsbət nəticələrini xüsusilə qeyd etdi. Dövlətimizin başçısı ixrac potensialının kifayət qədər olduğunu, artıq görülən işlərin real nəticələr verdiyini söylədi. Bildirdi ki, Azərbaycana kənd təsərrüfatı sektorundan ixrac nəticəsində milyonlarla dollar valyuta daxil olub.

Eyni zamanda, Prezident turizmin inkişafı ilə bağlı fikirlərini də bildirdi və müvafiq tövsiyələrini verdi. Dövlətimizin başçısı bu sahənin daha da inkişaf etdirilməsi, gəlirli sahəyə çevrilməsi üçün görülən işləri qeyd etdi. İclasda logistik xidmətlərin genişləndirilməsinin və bu sahədə yeni mərkəzlərin yaradılmasının da Azərbaycanın ixrac potensialının yaxşılaşdırılmasına, həm də qeyri-neft sektorunun inkişafına öz töhfəsini verəcəyi vurğulandı. Dövlətimizin başçısı xüsusilə qeyd etdi ki, bu yaxınlarda "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılması Azərbaycanın ən böyük uğurlarından biridir. Bununla yanaşı, Prezident İlham Əliyev ölkəmizdə ictimai-siyasi sabitliyin olduğunu vurğuladı. Bu, xalqın ölkə Prezidentinə inamı ilə bağlıdır və qarşılıqlı məhəbbətdən irəli gəlir.

Musa Quliyev diqqətə çatdırıb ki, iclasda Prezident İlham Əliyev qarşıda duran məsələlər barədə də fikirlərini söylədi, bununla bağlı tapşırıq və tövsiyələrini verdi. Yol infrastrukturunun inkişaf etdirilməsi, ixrac potensialının artırılması vacib məsələlərdir. Prezidentin iclasdan sonra qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planının təsdiq edilməsi haqqında imzaladığı Sərəncam mühüm əhəmiyyət daşıyır.

Qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması ilə dövlətimizin başçısı söylədi ki, yaxın ildə minlərlə ailə yeni mənzillərlə təmin olunacaq. Təkcə qaçqın və məcburi köçkünlərin deyil, eyni zamanda, sosial evlər layihəsinin bir uğurlu nəticəsi kimi azteminatlı ailələrin də mənzil şəraitinin yaxşılaşdırılması mümkün olacaq.

Gələn il Azərbaycan üçün uğurlu il olacaq. Heç də təsadüfi deyil ki, artıq beynəlxalq reytinq də Azərbaycanın vəziyyətinin yaxşı olduğunu göstərir və ölkəmiz daha yüksək yerlər tutmaqda davam edir. Bu, onu göstərir ki, Azərbaycan iqtisadiyyatı harmonik inkişaf edir və şaxələnmiş iqtisadiyyatdır. Bu da ölkədə balanslaşdırılmış siyasətin aparılmasının bariz nümunəsidir.

# 2017-ci ilin tarixə iqtisadi islahatlar ili kimi düşməsi dövlətimizin başçısının çevik strategiyası ilə bağlıdır

***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi.***

Azərbaycan Respublikasının Prezidenti 2017-ci ilin doqquz ayında ölkəmizin iqtisadi, siyasi, mədəni, sosial həyatında baş verən məsələlərə münasibət bildirdi. Ona görə də bu çıxışı bir neçə aspektdən, kompleks şəkildə qiymətləndirə bilərik. Çıxışda iqtisadi, siyasi və sosial məsələlər bloku ilə yanaşı, Azərbaycanın həyata keçirdiyi qlobal layihələrdən və hazırkı mərhələdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolundan da ətraflı bəhs edildi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib.

Hikmət Babaoğlu deyib: "Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev 2017-ci ili ciddi iqtisadi islahatlar ili kimi xarakterizə etdi. Doğrudan da, səsləndirilən rəqəmlər 2017-ci ildə çox böyük iqtisadi uğurların əldə edildiyini göstərir. Bu ilin tarixə iqtisadi islahatlar ili kimi düşməsi 2014 və 2015-ci illərdə Azərbaycan Prezidenti tərəfindən qlobal iqtisadiyyatda baş vermiş kataklizmlərlə bağlı çevik və effektiv iqtisadi siyasət strategiyası müəyyənləşdirməsi ilə bağlıdır".



Milli Məclisin deputatı qeyd edib ki, əgər 2015 və 2016-cı illərdə ölkəmizdə strateji iqtisadi islahatlar kursu müəyyəşdirilməsəydi, qanunvericilik və institusional sahələrdə islahatlar aparılmasaydı bugünkü uğurlardan da danışmaq olmazdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın valyuta ehtiyatları, onun iqtisadi və siyasi müstəqilliyini şərtləndirən strateji vasitədir. Hazırkı mərhələdə hər bir milli dövlətin valyuta ehtiyatlarının olması onun iqtisadi və siyasi müstəqilliyinin bir növ təminatçısıdır. Çünki ölkənin valyuta ehtiyatları yoxdursa, dərhal ən müxtəlif beynəlxalq maliyyə institutları ilkin növbədə bir qədər cəlbedici, sonrakı mərhələdə isə ağır şərtlərlə borc verməklə milli dövlətləri kredit və borclarla yükləyirlər. Bununla da yenidən iqtisadiyyatı dirçəltmək üçün məşəqqətli bir yol keçmək lazım gəlir. Məhz bu məsələnin həssasiyyətini və hazırkı mərhələdə Azərbaycan üçün bunun nə dərəcədə təhlükəli olduğunu nəzərə alan Prezident İlham Əliyev valyuta ehtiyatlarımızın artdığını vurğuladı. Qeyd olunduğu ki, bu gün Azərbaycanın 42 milyard valyuta ehtiyatı var və təkcə 2017-ci ilin 9 ayı ərzində valyuta ehtiyatlarımız 4,5 milyard artıb. Müharibə vəziyyətində olan bir ölkə üçün valyuta ehtiyatlarının qorunması başlıca strateji məsələdir.

"Biz bilirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli, o cümlədən Azərbaycanın ərazi bütövlüyü məsələsində Azərbaycana çoxsaylı beynəlxalq təzyiqlər edilir. Azərbaycan müstəqil xarici siyasət yeridə bilməsə, o zaman ərazi bütövlüyü məsələsində güzəştə məcbur edilə bilər. Ona görə də həyata keçirilən çevik, iqtisadi-siyasi islahatlar hazırkı mürəkkəb iqtisadi mərhələdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyini təmin edir. Azərbaycanın beynəlxalq nüfuzunun gündən-günə artdığını deyən dövlətimizin başçısı bildirdi ki, 2017-ci ilin 9 ayında 14 xarici ölkəyə səfər edib. Eyni zamanda, 10 ölkənin dövlət və hökumət başçısı Azərbaycana səfər edib. İlin sonuna kimi qarşılıqlı səfərlər davam edəcək. Bu isə Azərbaycanın dünya dövlətləri ilə, beynəlxalq təşkilatlarla münasibətlərinin ikitərəfli və çoxtərəfli qaydada inkişaf etdiyinin göstəricisidir. Heç şübhəsiz ki, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri, rolu və nüfuzu artmaqdadır. Əlbəttə ki, bu münasibətlərin hamısında Azərbaycanın başlıca hədəfi öz ərazi bütövlüyünü təmin etməkdir. Bunun üçün Azərbaycan özünə tərəfdaş və dost ölkələr seçir, onların sayını daima artırır", - deyə Hikmət Babaoğlu vurğulayıb.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru bildirib ki, Azərbaycanda həyata keçirilən çox böyük regional və qlobal xarakterli iqtisadi layihələr də ayrı-ayrı ölkələri Azərbaycana iqtisadi tərəfdaş etməklə yanaşı, həm də onu etibarlı, siyasi partnyor edir. Məhz bu məsələləri ümumi xarakterizə edən Prezident qeyd etdi ki, Azərbaycan 2016-cı il aprel döyüşlərindən sonra müxtəlif şərtlər qoyaraq danışıqlar masasından qaçmağa çalışan Ermənistanı danışıqlar masası arxasında oturmağa məcbur etdi.

Hazırkı mərhələdə Azərbaycanın hərbi-siyasi üstünlüyü imperativdirsə, o zaman ermənilər danışıqda maraqlı olmalıdır. Əks təqdirdə, onları çox pis nəticələr gözləyə bilər. 9 ayın yekunlarına həsr olunmuş iclasda bu fikirlərin səsləndirilməsi Ermənistanın işğalçı rejiminə yeni bir mesaj idi. Bu ciddi mesaj Ermənistan tərəfindən düzgün oxunmalıdır.

Prezident İlham Əliyev qeyd etdi ki, aparılan xarici siyasətimiz Azərbaycanın milli maraqlarını təmin edən siyasətdir. Önümüzdəki mərhələdə də Azərbaycan bu istiqamətə işlərini davam etdirəcək və yeni layihələr həyata keçirəcəkdir. Azərbaycanda çox münbit investisiya mühiti var. Azərbaycanın iqtisadiyyatının qlobal rəqabətlilik reytinqində 37-ci pillədən 35-ə yüksəlməsi mühüm iqtisadi göstəricidir. Bütün bunlar Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində, o cümlədən 2017-ci ildə imzalanan yeni əsrin yeni müqaviləsi və digər meqalayihələr kontekstində Azərbaycan iqtisadiyyatı üçün böyük perspektivlər vəd edir, onun inkişafını şərtləndirir ki, bu da bizim həm beynəlxalq nüfuzumuzu, həm də siyasi müstəqilliyimizi təmin edəcək əsas resurslar qismində çıxış edir.

# Nəsimi rayonunda Yeni Azərbaycan Partiyasının 25 illiyi ilə bağlı tədbirlər davam edir

## "Müstəqilliyimiz-26, Yeni Azərbaycan Partiyası-25" mövzusunda növbət tədbir keçirilib

**Dünən Nəsimi rayon Ağbirçəklər Şurasının və Nəsimi rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz-26, Yeni Azərbaycan Partiyası-25" mövzusunda növbət tədbir keçirilib. Rayonun 200-dən artıq ahıl vətəndaşları ilə Ambassador otelinin akt zalında keçirilən görüşdə "Ahıl vətəndaşların cəmiyyətimizdə rolu" mövzusunda video-çarx nümayiş olunub.**







Sonra tədbiri giriş sözü ilə açan YAP Qadınlar Şurası İdarə Heyətinin üzvü, rayon Ağbirçəklər Şurasının sədri Zərifə Quliyeva rayonun ictimai-siyasi həyatında ahıl vətəndaşların, o cümlədən, ağbirçəklərin rolundan geniş danışıb: "Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyev istər ölkəmizə birinci dəfə rəhbərlik etdiyi illərdə, istərsə də ikinci dəfə xalqın tərkidi ilə hakimiyyətə qayıtdıqdan sonra həmişə ahıl vətəndaşlara böyük diqqət və qayğı göstərmişdir. Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Möhtərəm Prezidentimiz İlham Əliyev, bütün sahələrdə olduğu kimi, bu sahədə də, Ulu Öndər Heydər Əliyev ideyalarını uğurla və layiqincə davam etdirir. Azərbaycan Respublikasının Birinci vitse - prezidenti Mehriban xanım Əliyeva daim ahıllara diqqət və qayğıyla yanaşır, onların problemlərinin həlli istiqamətində ciddi işlər görür". Z.Quliyeva çıxışına davam edərək, tədbir iştirakçılarını qarşıdan gələn 18 Oktyabr - Müstəqillik Günü və Yeni Azərbaycan Partiyasının 25 illiyi münasibəti ilə təbrik edib, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yarandığını və çox böyük sınaqlarla üz-üzə qalan Azərbaycan xalqını düşdüyü ağır vəziyyətdən xilas etdiyini bildirib. Z.Quliyeva onu da vurğulayıb ki, YAP-ın yaranması, təşəkkülü və uğurlu fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin dövləti və xalqı qarşısında misilsiz xidmətlərinin bariz nümunəsidir: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu inkişaf strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına müvafiq surətdə uğurla davam etdirilir. Onu da qeyd edək ki, Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməkdədir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır".

Tədbirdə Nəsimi rayon icra hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva, Bakı Dövlət Universitetinin professoru İradə Hüseynova, ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri Rəna Əliyeva və digərləri çıxış edərək YAP-ın 25 ildə zəngin və şərəfli yol keçdiyini bildiriblər. Çıxış edənlər qeyd ediblər ki, YAP yarandığı gündən xalqa və dövlətə xidməti fəaliyyətinin əsas xətti kimi qəbul edib. İlk gündən milyonların sevgisini qazanan partiya sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir, partiya üzvləri öz məsuliyyətlərini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsinə öz töhfəsini verməyə çalışırlar. Tədbirin sonunda bir qrup ahıl vətəndaşa hədiyyələr təqdim olundu.

**R.HÜSEYNOVA**

# Azərbaycanın uğurları beynəlxalq səviyyədə təqdir edilir



**"Artıq 2017-ci ilin böyük bir hissəsi arxada qalıb. Bu il dünya miqyasında həm siyasi, həm də iqtisadi baxımdan böhran müşahidə olunsa da, ölkəmiz öz inkişaf tempini qoruyub-saxlayıb. Oktyabrın 9-da Azərbaycan Prezidenti Cənab İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən dövlətimizin başçısının qeyd etdiyi kimi, ötən dövrdə ölkəmiz uğurla və hərtərəfli inkişaf edib. Bütün sahələrdə dinamik inkişaf təmin edilib." Bu sözləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.**

YAP Siyasi Şurasının üzvü qeyd edib ki, sağlam təməllər üzərində qurulmuş inkişaf strategiyasına uyğun olaraq Azərbaycan bu ilin 9 ayında kifayət qədər müsbət göstəricilər əldə edib: "Xüsusi olaraq, vurğulamaq lazımdır ki, qeyri-neft iqtisadiyyatı 2,5 faiz artıb. Bununla yanaşı, qeyri-neft sektorunun sənaye hissəsi uğurla inkişaf edir. Qeyri-neft sənayesi 3,1 faiz artıb. Kənd təsərrüfatındakı artım isə 2,8 faizə bərabər olub. Xarici ticarət dövriyyəsi 7 faiz artıb. İlin 9 ayında xarici ticarətin müsbət saldosu 4,4 milyard dollara bərabərdir. Bütün bunlar, onu deməyə əsas verir ki, Möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar öz bəhrəsini verir. Kənd təsərrüfatının, sənaye sahələrinin, turizmin, ümumilikdə, qeyri-neft sektorunun inkişafı real statistik rəqəmlərdə özünü göstərir. "

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, indiki mürəkkəb şəraitdə hər bir ölkə üçün önəmli olan ən əsas məsələ müstəqilliyi, suverenliyi qoruyub-saxlamaq və daha da möhkəmləndirməkdir: "Biz əbəs yerə tez-tez bu məsələni vurğulamırıq. Çünki bu gün böyük dövlətlərin maraqlarına "tuş gələn" bir sıra kiçik dövlətlər de-yure müstəqil olsalar da, de-fakto müstəqil deyillər. Ancaq dünya miqyasında öz yeri və rolu olan Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət yürüdür, öz dövlətçilik və milli maraqlarını daim müdafiə edir. Möhtərəm Prezidentimizin Nazirlər Kabinetinin iclasında qeyd etdiyi kimi, Azərbaycan özünü dünya miqyasında müstəqil ölkə kimi təqdim edə bilib, müstəqil siyasət aparan ölkə kimi tanınır. Bu amilin əsasında güclü siyasi iradə, xalq-iqtidar birliyi və s. məsələlər dayanır. Həmçinin, iqtisadi müstəqilliyi də vurğulamaq gərəkdir."

V.Rəhimzadənin sözlərinə görə, son illər aparılan mühüm islahatlar nəticəsində ölkə əhalisinin məşğulluğu yüksək səviyyədə təmin edilib, yeni iş yerləri açılıb: "Son 9 ayın sosial-iqtisadi göstəricilərinə görə, 226 min yeni iş yeri yaradılıb ki, onlardan 171 mini daimidir. Bu, onu göstərir ki, ölkəmizdə işsizlik aşağı səviyyədədir. Yeni iş yerlərinin yaradılması prosesi, mütəmadi olaraq həyata keçirilir və bu proses uğurlu sosial-iqtisadi siyasətimizin mühüm tərkib hissəsi kimi xarakterizə edilir." YAP Siyasi Şurasının üzvü bildirib ki, bu il neft-qaz sənayesi də bir sıra əlamətdar hadisələrlə yadda qalacaq: "Bu sahədə "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun gələcəkdə işlənilməsi ilə bağlı imzalanan yeni kontraktı, xüsusilə, vurğulamaq lazımdır. Qeyd edək ki, kontraktın müddəti 2050-ci ilə qədər uzadılıb. Nəticədə, ölkəmizin iştirak payı 11 faizdən 25 faizə yüksəlib. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə veriləcək. Bununla yanaşı, SOCAR yeni kontraktın podratçısı kimi iştirak edəcək, ölkəmizə xarici neft şirkətləri tərəfindən 3,6 milyard dollar bonus ödəniləcək. Bununla yanaşı, bütün dünyanın diqqət mərkəzində olan "Cənub Qaz Dəhlizi" layihəsinin icrası istiqamətində işlər uğurla aparılır. "Şahdəniz-2" layihəsinin icrası 96 faiz səviyyəsindədir. TANAP-ın 82 faizi, TAP-ın isə 53 faizi icra olunub. Hesab edirəm ki, bütün bunlar neft-qaz sənayesinin, ümumilikdə, Azərbaycanın sürətli inkişafına təkan verən mühüm amillərdir."

"İki sahil" qəzetinin baş redaktoru, onu da əlavə edib ki, ölkəmizin uğurlu inkişafı beynəlxalq səviyyədə də izlənilir və yüksək qiymətləndirilir: "Bu günlərdə Davos Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın iki pillə irəliləyərək, 37-ci yerdən 35-ci yerə qalxması davamlı islahatların məntiqi nəticəsidir. Bu, o deməkdir ki, Azərbaycan dünya miqyasında iqtisadi cəhətdən 35 ən rəqabətqabiliyyətli ölkə sırasındadır. Dövlətimizin başçısı Cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclasında vurğuladığı kimi, bu, böyük uğurdur, tarixi nailiyyətdir."

# Azərbaycan səfiri Pakistanın Baş naziri ilə görüşüb



Pakistanın Baş naziri Şahid Xakan Abbasi Azərbaycanın bu ölkədəki səfiri Əli Əlizadə ilə görüşüb. Diplomat Pakistanın Baş naziri seçilməsi münasibətilə Şahid Xakan Abbasiyə Azərbaycan Prezidenti İlham Əliyevin təbriklərini çatdırıb. Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan ilə əlaqələrə xüsusi önəm verdiyini vurğulayan səfir iki ölkə arasında qardaşlıq əlaqələrinin inkişafında və möhkəmlənməsində hər iki ölkə rəhbərlərinin xüsusi rolunun olduğunu bildirib. Əli Əlizadə Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycana göstərdiyi dəstəyin dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib. Səfir həyata keçirilən yüksək səviyyəli səfərlər, imzalanan sənədlər, viza rejiminin sadələşdirilməsi sahəsində görülən işlər, ticarət-iqtisadi, müdafiə sənayesi, enerji və digər sahələrdə Pakistanla həyata keçirilən son layihələr haqqında məlumat verib.

Şahid Xakan Abbasi də öz növbəsində onun salamlarının Azərbaycan Prezidenti İlham Əliyevə çatdırılmasını xahiş edib. İki ölkə arasındakı münasibətlərin son illərdə yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. Azərbaycan Prezidentinin Pakistana bu il baş tutmuş səfərindən sonra əlaqələrin daha da canlandığını qeyd edib.

Baş nazir iki ölkə arasındakı ticarət dövriyyəsinin mövcud potensiala uyğun olmadığını və bu istiqamətdə işlərin aparıldığını da vurğulayıb. Baş nazir Pakistanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində prinsipial mövqeyinin dəyişməz olduğunu, Pakistanın Azərbaycanı hər zaman qətiyyətlə dəstəklədiyini vurğulayıb və Kəşmir məsələsində verdiyi dəstəyə görə Azərbaycan tərəfinə təşəkkür edib.

# Sabunçuda YAP-ın 25 illiyi münasibəti ilə növbəti tədbirlər davam edir

*"Yeni Azərbaycan Partiyası- 25" və 2017-ci il İslam Həmrəyliyi İli" mövzusunda növbəti tədbir keçirilib*

**Dünən YAP Sabunçu rayon təşkilatı və Sabunçu rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Yeni Azərbaycan Partiyası- 25" və 2017-ci il "İslam Həmrəyliyi İli" mövzusunda növbəti tədbir keçirilib.**

Tədbirdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirib ki, keçirilən tədbir şərqşünas-alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın doğum gününə təsadüf edir.

Tədbir iştirakçıları ilk öncə Aida İmanquliyevanın xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra çıxış edən rayon təşkilatının sədri M.Abasquliyeva bildirib ki, Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi "İslam Həmrəyliyi İli" ilə bir ilə təsadüf edir: "Ölkə başçısı İlham Əliyev 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi ili" elan etməklə, beynəlxalq aləmə onu da sübut etdi ki, xalqımız uzun əsrlər boyu tolerant mühitə malik olub. Məhz bu amil həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, dövlətimizdə yürüdülən siyasət bütün sahələri əhatə etməklə yanaşı, bu sahəni də əhatə etməkdədir. Xüsusilə, Yeni Azərbaycan Partiyasının 25-ci ildönümünün bu tarixlə üst-üstə düşməsi bizləri ikiqat sevindirir. Həmrəylik və birlik həm də vəhdət deməkdir. Bu gün xalqımız Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev Cənablarının ətrafında sıx birləşərək, Onun siyasətinə birmənalı dəstək verir. Xalq-hakimiyyət birliyinin bariz nümunəsi olaraq, Azərbaycan daha da güclənir və qüdrətli ölkəyə çevrilir".






Tədbirdə Sabunçu rayon icra hakimiyyəti başçısının müavini Rəna Fərəcova çıxış edərək, Yeni Azərbaycan Partiyasının Azərbaycan xalqının həyatında mühüm rol oynayan xilaskar partiya olduğunu bildirib. Qeyd edib ki, hər bir YAP üzvü dərindən anlamalı, dövlətinin, xalqının inkişaf və tərəqqisinə öz töhfələrini verməkdə davam etməlidir. Qələbələr partiyası olan YAP təmsilçiləri olaraq, həmrəyliyin, tolerantlığın müqabilində ölkəmizdə sabitliyimizin qorunmasında yorulmadan və əzmlə çalışmaqda davam edəcəyik.

Tədbirdə AMEA Fəlsəfə İnstitutunun direktoru, Yeni Azərbaycan Partiyasının üzvü, professor İlham Məmmədzadə, AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri, Yeni Azərbaycan Partiyasının üzvü, professor Rəna Mirzəzadə, AMEA Fəlsəfə İnstitutunun əməkdaşları, elmlər doktorları, YAP üzvləri Lalə Mövsümova, Ziba Ağayeva, fəlsəfə doktoru, YAP üzvü Habil Həmidov, YAP-ın AMEA Fəlsəfə İnstitutunun ərazi ilk partiya təşkilatının sədri Sənan Həsənov, fəlsəfə doktorları, YAP üzvləri Davud Həşimov, Samirə Kadıyeva və digərləri çıxış edərək 2017-ci ilin ölkə Prezidenti İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan olunduğunu söyləyərək, onun regional və qlobal dünyəvi əhəmiyyətindən bəhs ediblər. Həmçinin, çıxış edənlər YAP-ın keçdiyi şərəfli 25 illiyi ilə bağlı danışaraq, vurğulayıblar ki, xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının yaranması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi və Azərbaycana rəhbərlik etməsi YAP-ın fəaliyyətini bir qədər də gücləndirdi. Vurğulanıb ki, YAP yaradılmasından ötən dövr ərzində zəngin inkişaf yol keçib və bu gün Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin yorulmaz və məqsədyönlü fəaliyyəti sayəsində ölkənin ictimai-siyasi həyatında nüfuzunun daha da artırıb.

**R.HÜSEYNOVA**

# Yeni Azərbaycan Partiyası monolit birliyə malik yüksək intellektli siyasi təşkilatdır






**Dünən YAP Yasamal rayon təşkilatının Şərifzadə küçəsi, 173 ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdən öncə, YAP-ın keçdiyi zəngin yolu əks etdirən videoçarx nümayiş olunub.**

Tədbiri giriş sözü ilə açan ərazi ilk partiya təşkilatının sədri Yaqut Sadıqova Yeni Azərbaycan Partiyasının 25 illik fəaliyyəti dövründə xalqımızın taleyüklü problemlərinin həllində müstəsna xidmətlərindən danışıb. O, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə doğru inamla irəlilədiyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov bildirib ki, bu gün 25 illiyini böyük təmtəraqla qeyd etdiyimiz Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rola malikdir. O, Ulu Öndər Heydər Əliyev irsinin və siyasi dühasının ən layiqli varisi, YAP-ın Sədri, Prezident İlham Əliyevin ölkəmizin iqtisadi inkişafına, xalqımızın rifahının yüksəlməsinə göstərdiyi qayğıdan, gərgin və səmərəli fəaliyyətindən söz açıb. Rayon təşkilatının sədri bildirib ki, Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın nüfuzu getdikcə artmaqdadır: "Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına Azərbaycan cəmiyyətində olan dərin inamdan və ehtiramdan irəli gəlir. Bunun nəticəsidir ki, Yeni Azərbaycan Partiyası monolit birliyi, sosial bazası və yüksək intellekti olan bir siyasi təşkilatdır. Öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası, Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi, cəmiyyətdə öz aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir".

T.Əhmədov çıxışında onu da bildirib ki, bu gün Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib.

Sonra tədbir bədii hissə ilə davam etdirilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına qəbul olunan şəxslərə partiyanın üzvlük vəsiqələri təqdim olunub.

**Nəzakət ƏLƏDDİNQIZI**



## "Doqquz ayda Azərbaycandan qeyri-neft ixracı 1 milyard 69 milyon dollar təşkil edib"

**Bu ilin ilk 9 ayı ərzində Azərbaycan Respublikasından qeyri-neft ixracı 1 milyard 69 milyon ABŞ dolları təşkil edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 30 faiz artım deməkdir. Qeyri-neft ixracının sürətlə artması ölkədə aparılan əhatəli iqtisadi islahatların birbaşa nəticəsidir. Bu barədə AZƏRTAC-a İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyib.**

"Doqquz ayda 1582 şirkət bilavasitə qeyri-neft ixracına cəlb edilib. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə daha çox şirkətlərin ixrac həcmini artırmasıdır. İxracda sənaye məhsulları, o cümlədən polad, alüminium, polietilen, plastik məmulatlardan hazırlamış məhsullar, eyni zamanda, kənd təsərrüfatı məhsulları ilk onluqdadır. Bu müddətdə ölkədən ixrac olunan pomidorun ümumi dəyəri 128 milyon ABŞ dollarından çoxdur.

## YAP-ın 25 illik yubileyi Gəncədə silsilə tədbirlərlə qeyd edilir



Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatının təşəbbüsü və dəstəyi ilə YAP-ın yaradılmasının 25 illik yubileyi ilə bağlı Gəncə şəhərində fəaliyyət göstərən universitetlərdə gənclərlə görüşlər keçirilir.

"Yeni Azərbaycan Partiyası yarandığı gündən öz siyasi xəttinə sadiqliyi, xalq və dövlət qarşısında xidmətləri, ölkəmizin bir-birini əvəzləyən uğurları ilə cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirib və ümumxalq partiyası olduğunu təsdiqləyib"-bu sözləri Gəncə Dövlət Universitetində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibəti ilə keçirilən görüşdə millət vəkili Naqif Həmzəyev bildirib.



Yeni Azərbaycan Partiyasının 25 illik fəaliyyəti dövründə xalqımızın taleyüklü poblemlərinin həllində müstəsna xidmətlərindən danışan millət vəkili Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə doğru inamla irəlilədiyini diqqətə çatdırıb: "Bu müddət ərzində, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycan regionun lider dövlətinə çevrilib". Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olub. Bu sahədə işlərin məntiqi davamı olaraq paytaxt Bakı ilə yanaşı bölgələrdə, xüsusilə Gəncə şəhərində abadlıq-quruculuq işləri yeni mərhələyə qədəm qoyub, infrastruktur layihələr uğurla həyata keçirilir. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə təməli qoyulan, şəxsi nəzarəti altında inşa edilən obyektlər Gəncə şəhərinin simasını daha da müasirləşdirib və gözəlləşdirib. Çoxsaylı səhiyyə və təhsil müəssisələri, piyada keçidləri, parklar, infrastruktur obyektləri, istehsalat müəssisələri və çoxmərtəbəli yaşayış binalar Nizami yurduna xüsusi yaraşıq verir"

GDU-nin Elm və innovasiyalar üzrə prorektoru, millət vəkili Pərvin Kərimzadə Azərbaycan Dövlət Aqrar Universitetində baş tutan görüşdə çıxış edərək, Azərbaycan siyasi palitrasının ən güclü və nüfuzlu siyasi təşkilatı olan YAP-ın öz sıralarında cəmiyyətin bütün təbəqələrini təmsil edən insanları birləşdirdiyini qeyd edib. Cəmiyyətin ən dinamik təbəqəsi kimi çıxış edən gənclərin əksəriyyəti YAP sıralarında təmsil olunur və ictimai-siyasi proseslərdə aktiv iştirak edirlər. Bunun başlıca səbəbi, ölkəmizdə həyata keçirilən gənclər siyasətinə paralel olaraq, YAP-ın Azərbaycan gəncliyinin inkişafına xüsusi diqqət yetirməsidir". Yeni Azərbaycan Partiyası öz fəaliyyətində daim üzvlərinin rəy və təkliflərini nəzərə alır və demokratik idarəçilik prinsiplərini layiqincə tətbiq edir. Bu baxımdan, gənclərin düşüncə və ideyaları hər zaman diqqət mərkəzində saxlanılır. Mütəmadi olaraq gənclərin fikirləri, təklif və tövsiyələri öyrənilir.

AMEA-nın müxbir üzvü, ADAU-nun rektoru, professor İbrahim Cəfərov, GDU-nun Humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva, GDU YAP ərazi ilk partiya təşkilatının sədri Cavid Bağırzadə, gənclərdən Nərmin Verdiyeva, Yunus Abarəliyev və digər çıxış edənlər Yeni Azərbaycan Partiyasının gənclərin həyatında, onların inkişafındakı rolundan, gənclərə göstərilən diqqət və qayğıdan, ölkəmizdə həyata keçirilən gənclər siyasətinin Gəncə şəhərində uğurla həyata keçirildiyindən danışıblar.

Görüşlər partiya sıralarına qəbul edilən bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunması ilə davam edib.

**Rövşən NURƏDDİNOĞLU**

## YAP Sumqayıt şəhər təşkilatı partiyanın 25 illiyinə uğurla hazırlaşır

*<u>Ramiz Hüseynov:</u> "Regionda ən böyük siyasi qüvvəyə çevrilən YAP həm də xalq-hakimiyyət birliyinin bariz nümunəsidir"*

Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatında partiyanın yaradılmasının 25 illiyi münasibəti ilə tədbirlər planının təsdiq olunması ilə bağlı iclas keçirilib. İclasda YAP Sumqayıt şəhər təşkilatının üzvləri və fəalları iştirak ediblər. YAP Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov iclası açaraq, qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyası ötən 25 ildə ölkəmizin inkişaf və tərəqqisində əsas siyasi qüvvə olaraq müstəsna rolunu oynayıb və bu gün partiyanın Sədri, ölkə Prezidenti Cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirməkdədir: "Regionda ən böyük siyasi qüvvəyə çevrilən YAP həm də xalq-hakimiyyət birliyinin bariz nümunəsidir. Hakim partiyanın 25 illiyi xalqımız tərəfindən böyük coşqu və fəxarət hissi ilə qeyd olunacaq. O cümlədən, sumqayıtlılar da bu coşqunu yaşamaq əzmindədirlər".





YAP-ın yaranmasının 25 illiyi münasibətilə YAP Sumqayıt şəhər təşkilatının tədbirlər planının təsdiq olunması mövzusunda çıxışlar dinlənildi.

YAP Sumqayıt şəhər təşkilatının nəzarət-təftiş qrupunun təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə baxılması NTQ sədri Akif Kərimova həvalə olundu. Ərazi ilk partiya təşkilatların təsis olunması barədə yığıncaqların qərarının təsdiq edilməsi ətrafında YAP Sumqayıt şəhər təşkilatının sədr müavini Vəzirxan Ənsərov çıxış edərək, fikirlərini bildirdi.

İclasın sonunda YAP sıralarına yeni üzvlərin qəbul edilməsi barədə yığıncaqların qərarı təsdiqləndi.

**R.RƏSULOV**

## YAP Qusar rayon təşkilatı partiyanın yaradılmasının 25-ci ildönümü münasibəti ilə tədbir keçirib

Dünən Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatının Balaqusar kənd ərazi ilk partiya təşkilatında partiyanın yaradılmasının 25-ci ildönümü münasibəti ilə tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan YAP Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov Yeni Azərbaycan Partiyasının tarixi zərurətdən yaranmasından, qısa zaman məsafəsində onun keçdiyi böyük inkişaf yolundan, ölkənin ictimai-siyasi həyatındakı müstəsna rolu barədə geniş məlumat verib. Rayon təşkilatı sədri bildirib ki, ciddi sınaqlardan çıxmış YAP 25 il ərzində təşəkkül tapıb, inkişaf edib, möhkəmlənib və ildən-ilə öz sıralarını genişləndirərək, xalqın partiyasına çevrilib.

Tədbirdə çıxış edən rayon təşkilatının sədr müavini Nadirşah Şirinov çıxışında partiyanın keçdiyi şərəfli, qürurverici tarixindən söz açıb. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Yeni Azərbaycan Partiyası xalqın və dövlətin maraqlarına əsaslanan fəaliyyəti ilə, nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda ən aparıcı lider partiya olduğunu qeyd edib.



YAP Qusar rayon təkilatının şura üzvü Ağadadaş Ömərov və Balaqusar kənd ərazi ilk partiya təşkilatının sədri Azər Rzayev bildiriblər ki, Azərbaycanın bugünkü inkişafı və tərəqqisi hər bir Azərbaycan vətəndaşında, Yeni Azərbaycan Partiyasının hər bir üzvündə qürur hissi doğurur.

Qeyd olunub ki, yarandığı vaxdan bu günə qədər şərəfli və uğurlu yol keçən, sıralarında 700 mindən çox üzvü ehtiva edən Yeni Azərbaycan Partiyası xalqımız tərəfindən birmənalı şəkildə dəstəklənir.

**NƏZAKƏT**

# Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin reallaşması əhaliyə göstərdiyimiz xidmətlərin keyfiyyətinin yüksəlməsinə səbəb olacaq

## "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynovun yap.org.az-a müsahibəsi

***- Qorxmaz müəllim, 2017-ci ildə möhtərəm Prezident İlham Əliyev tərəfindən əhalinin içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı bir sıra mühüm sərəncamlar imzalanmışdır. Öncə istərdik, bu sərəncamların əhəmiyyəti və onlardan irəli gələn məsələlərin icrası barədə fikirlərinizi bildirəsiniz.***



- Əvvəlcə qeyd etmək istərdim ki, əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, onların kanalizasiya xidmətləri ilə təmin olunması sosial siyasətin əsas hədəflərindəndir. Cənab Prezident İlham Əliyevin hər bir yaşayış məntəqəsinin keyfiyyətli içməli su ilə təmin olunması barədə tapşırıqlarına uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən son illər Bakı şəhəri və Abşeron yarımadasında, həmçinin regionlarda genişmiqyaslı layihələr həyata keçirilmiş və bu sahədə işlər hazırda da davam etdirilməkdədir. Ümumilikdə götürsək, 2017-ci ilin ötən dövrü su təsərrüfatı sektoru üçün mühüm hadisələrlə müşahidə olunmuşdur.

Cari ilin martında cənab Prezidentin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" imzaladığı sərəncam xüsusi qeyd olunmalıdır. Sərəncama əsasən, 28 rayonun 170 yaşayış məntəqəsinin su təchizatının yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Bu layihələr çərçivəsində 271 min kənd sakini keyfiyyətli içməli su ilə təmin olunacaqdır. Məlumat üçün deyim ki, şəhər və rayon mərkəzləri ilə müqayisədə kəndlərin su təchizatının aparılması xüsusi yanaşma tələb edir. Belə ki, kəndlərin layihələri hazırlanarkən onların yerləşdiyi ərazilər, su mənbələrinə yaxınlığı, infrastruktur imkanları diqqətlə araşdırılır. Bunlar nəzərə alınaraq mütəxəssislərimiz tərəfindən qısa müddətdə layihələr işlənilmiş və may-iyun aylarında tikinti-quraşdırma işlərinə başlanılmışdır.

Layihələrə əsasən bu kəndlərdə ümumi uzunluğu 531 km olan su xətlərinin tikintisi, 1400-ə yaxın bulağın quraşdırılması nəzərdə tutulmuşdur. İndiyədək 450 km-dən çox su xətləri çəkilmiş, 1000-dən artıq bulaq quraşdırılmışdır. 170 kəndin təqribən yarısında işlər yekunlaşmış və ilin sonuna qədər bütün kəndlərdə işlər başa çatdırılacaqdır.

Möhtərəm Prezidentin avqust-sentyabr aylarında imzaladığı sərəncamlarda Qax, Mingəçevir, Salyan, Biləsuvar şəhərlərində, həmçinin Abşeron yarımadasında yerləşən bəzi qəsəbələrdə içməli su və kanalizasiya layihələrinin icrasının davam etdirilməsi ilə bağlı tapşırıqlar verilmişdir. Artıq adıçəkilən yaşayış məntəqələrində işlərə başlanılmışdır.

***- Respublikanın şəhər və rayon mərkəzlərində həyata keçirilən layihələrdən söz düşmüşkən, bu sahədə son vəziyyətin ümumi mənzərəsi necədir?***

- Ölkə rəhbərinin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq bölgələrin içməli su təchizatı və kanalizasiya infrastrukturu yenidən qurulur. Artıq su və kanalizasiya layihələrinin icra olunduğu şəhər və rayon mərkəzlərinin sayı 47-yə çatmışdır. Bu şəhərlərin 33-də işlər "Azərsu" Səhmdar Cəmiyyətinin sifarişi ilə həyata keçirilir. İndiyədək 47 şəhərin 23-də su və kanalizasiya şəbəkələrinin, 9-da isə su şəbəkəsinin inşası yekunlaşmışdır. 2017-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Saatlı, Gədəbəy, Cəlilabad, Şamaxı və Qobustan şəhərlərində yeni infrastrukturun istismara verilməsi ilə bağlı açılış mərasimləri keçirilmişdir. Bu il daha bir şəhərdə - Xırdalanda içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması, Almaniyanın KFV bankı ilə birgə maliyyələşdirilən layihə çərçivəsində Gəncə və Şəki şəhərlərində layihənin növbəti mərhələləri üzrə işlərə başlanılmışdır.

2017-ci ilin sonuna qədər Daşkəsən və Xaçmaz şəhərlərində su və kanalizasiya şəbəkələrinin inşası yekunlaşdırılacaq, bəzi şəhərlərdə tullantı sutəmizləyici qurğuların inşasına start veriləcəkdir.

Ümumilikdə götürsək, son illər regionlarda yaradılmış yeni su mənbələri əhalinin içməli su təminatını xeyli yaxşılaşdırmışdır. Bölgə əhalisinin keyfiyyətli və dayanıqlı içməli su ilə təmin edilməsi məqsədilə Şirvan-Muğan, Saatlı-Sabirabad qrup su kəmərləri, Külüllü su qurğuları kompleksi, Quba, Mingəçevir, Xanbulançay sutəmizləyici qurğuları yaradılmışdır. Bu mənbələrdən rayon mərkəzlərinə və bir sıra kəndlərə suyun verilməsi təmin edilmişdir.

2012-2013-cü illərdə tikilmiş Şirvan-Muğan qrup su kəmərindən Biləsuvar, Salyan, Şirvan və Hacıqabul şəhərləri, 2014-cü ildə istismara verilmiş Sabirabad-Saatlı qrup su kəmərindən isə Sabirabad və Saatlı şəhərləri su ilə təmin olunur. Gələcəkdə bu kəmərlərdən marşrut boyu ərazilərdə yerləşən 165 kəndin sakinləri də faydalanacaqdır.

Girdmançayın yatağında tikilmiş və məhsuldarlığı saniyədə 450 litr olan Külüllü su qurğuları kompleksi və buradan Ağsu, Kürdəmir, Ucar və Zərdab şəhərlərinə 182 km uzunluğunda magistral kəmərləri həmin şəhərlərin su təminatını əsaslı şəkildə yaxşılaşdırmışdır.

Ötən müddətdə şəhər və rayon mərkəzləri ilə yanaşı, kənd və qəsəbələrin də su təminatı xüsusi diqqətdə saxlanılıb. Ümumilikdə 360 min nəfərin yaşadığı 350 kənddə içməli su layihələri icra olunub. Bu layihələr arasında cəbhə xəttində yerləşən və sudan əziyyət çəkən yaşayış massivlərinin su təchizatının yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Bütün bu layihələrin icrası nəticəsində ölkə üzrə fasiləsiz içməli su alan əhalinin xüsusi çəkisi 66 faizə yüksəlmişdir.

***- Qorxmaz müəllim, Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması, istiqamətində hansı tədbirlər həyata keçirilir?***

- Məlum olduğu kimi müstəqillik illərində Bakı şəhəri və Abşeron yarımadası sürətlə inkişaf etmişdir. Şəhərin genişlənməsi, əhali artımı içməli suya olan tələbatı ciddi şəkildə artırmışdır. Bütün bunları nəzərə alan ümummilli lider Heydər Əliyev hələ uzun illər öncə Bakıya yeni mənbədən suyun gətirilməsi təşəbbüsünü irəli sürmüşdür. Ulu öndərin ideya müəllifi olduğu Oğuz-Qəbələ-Bakı su kəməri cənab Prezidentin bilavasitə rəhbərliyilə 2007-2010-cu illərdə tikilmişdir. Kəmər istismara veriləndən bir il sonra daha bir mənbədən Abşeron yarımadasına suyun verilməsi üçün böyük infrastruktur layihəsinin icrasına başlanılmışdır. 2015-ci ildə cənab Prezidentin iştirakı ilə dünyanın ən böyük ultrasüzgəc qurğusu olan Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksi istismara verilmişdir. Buradan götürülən suyun Abşeron yarımadasının yaşayış məntəqələrinə çatdırılması üçün 84 km uzunluğunda Ceyranbatan-Zirə magistral kəməri və magistral xəttin marşrutu boyu ümumi tutumu 90 min kub metr olan Abşeron, Saray, Balaxanı, Ramana, Qala, Zirə anbarları tikilmişdir.

Ceyranbatan-Zirə xəttinin istismara verilməsi nəticəsində Bakıətrafı qəsəbə və kəndlərdə 300 mindən artıq insanın su təchizatı yaxşılaşmış, 90 min nəfər isə ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunmuşdur. Yeri gəlmişkən, Türkan, Zirə, Pirallahı qəsəbələri məhz bu layihənin gerçəkləşməsi nəticəsində ilk dəfə mərkəzləşmiş qaydada içməli su ilə təmin edilmişdir.

Bakı şəhəri və Abşeron yarımadasının şəhər, qəsəbə və kəndlərində su təchizatı, kanalizasiya sistemləri və yağış sularının idarə olunmasını nəzərdə tutan Master Plana uyğun olaraq işlərə başlanılmış və ötən müddətdə ümumi uzunluğu 1000 km-dən çox olan su şəbəkəsi yaradılmışdır. Bu sahədə işlər davam etdirilir. Cənab Prezidentin bu yaxınlarda imzaladığı sərəncamlara uyğun olaraq Novxanı, Mehdiabad, Binəqədi, 28 may, Pirəküşkül, Qobustan, Binə, Şağan, Şüvəlan, Mərdəkan qəsəbələrində yeni şəbəkələr yaradılacaqdır.

Ötən müddətdə Bakı şəhərində infrastrukturun yenilənməsi istiqamətində kompleks işlər həyata keçirilmişdir. Paytaxtda mərkəzi su anbarlarının yenidən qurulması, magistral və paylayıcı xətlərin tikintisi, 1500-dən artıq çoxmənzilli binaların su təchizatı sistemlərinin yenilənməsi su təchizatında sabitliyi təmin etmişdir. Ümumilikdə son illər Bakı şəhərindən həyata keçirilən layihələr nəticəsində fasiləsiz rejimdə su alan əhalinin xüsusi çəkisi 81 faizi keçmişdir.

***- Qarşıda intensiv yağıntıların müşahidə olunduğu payız-qış mövsümü gəlir. Güclü yağıntılar zamanı bəzi küçə və yaşayış massivlərində subasma hallarının baş verməməsi üçün hansı tədbirlər görülür?***

- Məlumat üçün deyim ki, ötən ilin noyabrında cənab Prezident Bakı şəhərində yağış-kanalizasiya sisteminin təkmilləşdirilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında sərəncam imzaladı və mütəxəssislər qısa müddətdə subasma hallarının daha çox müşahidə olunduğu əraziləri müəyyənləşdirərək təkliflər hazırladılar. Bu təkliflərə hökumət səviyyəsində baxıldı və Nazirlər Kabineti Bakı şəhərində yağış sularının yığılma təhlükəsi olan avtomobil yolları və ərazilərdə səth sularının kənarlaşdırılması üçün kompleks tədbirlərin görülməsi haqqında sərəncam layihəsə qəbul etdi. Burada Abşeron yarımadasının subasma təhlükəsi olan müxtəlif ərazilərində 13 layihənin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

2017-ci ilin may ayında tikinti-quraşdırma işlərinə başlanılmış və qısa müddətdə 8 ərazidə - Böyükşor, Taşağıl və Məhəmmədi gölləri, Ramana Südçülük Sovxozu, Əhməd Cəmil, Əliyar Əliyev, Yusif Səfərov, Kazımağa Kərimov küçələrində layihələrin icrası yekunlaşmışdır. Bu layihələr çərçivəsində layihələndirilmiş 17 km-dən çox kollektor və nasos stansiyaları inşa edilmişdir. Bu layihələrin ötən mərhələsi haqqında qısa məlumat vermək istərdim.

Binəqədi şosesi boyu yağış sularının kənarlaşdırılması məqsədilə 2,9 km kollektor inşa olunmuşdur. Bununla da intensiv yağıntılar zamanı Binəqədi şosesində yığılan sular yeni tikilmiş kollektorla Böyükşor gölünə axıdılacaq. Böyükşor gölündə su səviyyəsinin tənzimlənməsi məqsədilə 1,5 km kollektor tikilmişdir. Subasma hallarının daha çox qeydə alındığı Ziya Bünyadov prospektində də işlər intensiv şəkildə davam etdirilir.

Məhəmmədi gölünün səviyyəsinin tənzimlənməsi məqsədilə 2,4 km layihələndirilən kollektorun 1,6 km-lik hissəsi tikilmişdir. Suyun səviyyəsi azaldıqdan sonra növbəti mərhələdə kollektor gölün içərisinə doğru daha 200 metr uzadılacaq və burada sugö-

# Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin reallaşması əhaliyə göstərdiyimiz xidmətlərin keyfiyyətinin yüksəlməsinə səbəb olacaq

## "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynovun yap.org.az-a müsahibəsi

türücü kamera tikiləcək.

Qarşıdakı bir ay ərzində layihələr üzrə nəzərdə tutulmuş işlərin tam başa çatdırılması planlaşdırılır. Bununla da subasma təhlükəsi olan bəzi küçə və prospektlərdə su yığılmalarının qarşısı alınacaq. Eyni zamanda göllərdə suyun səviyyəsini tənzimləməklə yaşayış evlərinə ziyan vurma təhlükəsini aradan qaldıracaq.

***- Qorxmaz müəllim, ilin əvvəlində regionların sosial-iqtisadi inkişafına həsr olunmuş konfransda cənab Prezident "Azərsu" ASC-yə suvarma layihələrinin icrası ilə bağlı tapşırıqlar vermişdir. Bu layihələrin icrası hansı mərhələdədir?***

- Dövlət başçısının istifadəsiz torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması barədə tapşırıqlarına uyğun olaraq "Azərsu" ASC tərəfindən ilk dəfə olaraq suvarma layihələrinin icrasına başlanılmışdır. Bu layihələr Zərdab, Hacıqabul və Şamaxı rayonlarının ərazisində həyata keçirilir.

Zərdab rayonunda 10 min hektar sahənin suvarılması məqsədilə Kür çayı sahilində məhsuldarlığı saniyədə 3 kubmetr olan sugötürücü qurğu, nasos stansiyası tikilmiş, enerji təchizatı sistemləri yaradılmışdır. Su mənbəyindən əkin sahələrinə 15 km uzunluğunda magistral su xətti çəkilmiş və suyun verilməsinə başlanılmışdır.

Padarçöl adlanan ərazidə 10 min hektar sahənin suvarılması layihəsi çərçivəsində Kür sutəmizləyici qurğusunun imkanlarından istifadə etməklə, Padarçöl ərazisinə 27 km xəttin tikintisi başa çatmaq üzrədir.

Bu günlərdə cənab Prezident Hacıqabul, Şamaxı və Zərdab rayonlarında ərazilərin suvarma suyu ilə təminatı layihələrinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, adıçəkilən rayonlarda ərazilərin suvarma suyu ilə təminatı üçün başlanılmış layihələrin davam etdirilməsinə dövlət dəstəyini təmin etmək məqsədilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 8 milyon manat ayrılmışdır. Hesab edirəm göstərilən dəstək bizə imkan verəcək ki, işlər vaxtında yekunlaşsın və ölkəmiz ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfələr versin.



***- Qorxmaz müəllim, hazırda bütün istehsalat proseslərinin avtomatlaşdırılması bütün dünyada prioritet vəzifə kimi səciyyələndirilir. Ölkəmizdə də İKT-nin tətbiqi ilə bağlı ciddi layihələr icra olunur. Bu sahədə Səhmdar Cəmiyyətdə hansı işlər görülür?***

- Bu sahədə son illər mühüm layihələr icra olunmuş və xeyli uğurlar əldə edilmişdir. Son illər tətbiq olunan yeniliklər sırasında AzersuGİS, SCADA, MİS proqramlarını xüsusi qeyd etmək istərdim.

SCADA sistemi qurğu və ya obyektin, suyun paylanmasının vahid mərkəzdən idarəedilməsini nəzərdə tutur. Misal olaraq deyə bilərəm ki, 2015-ci ildə istismara verilən Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksi tam avtomatik rejimdə idarə olunur. Suyun göldən götürülməsindən tutmuş, təmizlənməsi, anbarlanması və magistral kəmərlərə ötürülməsi insan əli dəymədən və müdaxiləsi olmadan həyata keçirilir.



AzərsuCİS, yeni coğrafi informasiya sistemləri bu sahədə tətbiq olunan əsas texnoloji yenilikdir. Qurğu və obyektlərin, magistral və paylayıcı şəbəkələrimizin hamisi bu rəqəmsal xəritəyə işlənir və istənilən an məlumatları kompüterdən əldə edib təhlillər aparmaq mümkündür. Eyni zamanda bu sistemdən istifadə etməklə hər bir qurğu və xəttin nə vaxt tikildiyi, hansı ərazilərə xidmət göstərdiyi, istismar vəziyyəti və digər lazımi göstəricilərin anındaca əldə edə bilirik. Artıq 20 min km-ə yaxın içməli və tullantı su xətləri, 9 minə yaxın qurğu və kompleks sistemə daxil edilmişdir.

Son illər elektron xidmətlərdən istifadə də geniş vüsət almışdır. Hazırda "Azərsu" ASC tərəfindən 10 elektron xidmət təqdim edilir. Təhlillər göstərir ki bu xidmətlər vətəndaşların işini xeyli asanlaşdırır, vaxta və əlavə məsrəflərə qənaət etməyə imkan verir.

Yeni texnologiyalardan danışarkən, "Azərsu" ASC-nin Mərkəzi laboratoriyasının imkanlarını xüsusi qeyd etmək lazımdır. Ha-



zırda Mərkəzi Laboratoriyada içməli və tullantı suların 90-dan artıq parametri üzrə təhlillər və analizlər aparılır. İl ərzində laboratoriyamızda 15700 su nümunəsi üzrə 126 minə yaxın analiz aparılmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, bu gün bizim bütün mənbələrdən əhaliyə verilən su qüvvədə olan standartlara tam cavab verir. İstənilən ərazidə analizlərin aparılması məqsədilə səyyar laboratoriya kimi fəaliyyət göstərən 6 ədəd nəqliyyat vasitəsi alınmışdır. Bu sahədə çalışan kadrların təcrübəsinin artırılması məqsədilə mütəxəssislərimiz xarici ölkələrdə təcrübə kurslarında iştirak etmişdir.

***- Cənab Prezident Azərbaycan Respublikasında Kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsini təsdiqləyib. Sənəddə bu sahə ilə bağlı işlərin görülməsi də nəzərdə tutulub.***

- Bəli sənəddə kifayət qədər böyük tədbirlər nəzərdə tutulub, o cümlədən su təsərrüfatı üzrə. Sənəddə yeni paylayıcı şəbəkələrin qurulması, sayğaclaşma işləri, itkilərin azaldılması, o cümlədən paylamada olan itkilərin 31 faizdən 25-faizə, kommersiya itkilərinin 20 faizdən 14 faizə endirilməsi, sayğacsız istifadəçilərin xüsusi çəkisinin 5 faizə endirilməsi ilə bağlı konkret tapşırıqlar verilmişdir. Bunlarla yanaşı, tullantı suların toplanma səviyyəsinin 46 faizdən 65 faizə qaldırılması, ASAN kommunal xidmət mərkəzlərinin genişlənməsi, kadr potensialının təkmilləşdirilməsi, su təchizatı və tullantı suları haqqında yeni qanunun hazırlanması kimi hədəflər müəyyənləşdirilmişdir.

Diqqətinizə çatdırım ki, artıq ASAN kommunal xidmət mərkəzlərində "Azərsu" ASC-nin bütün müştəri xidmətlərinin göstərilməsi təmin edilib. İlin əvvəli ilə müqayisədə sayğaclaşma səviyyəsi 5 faizdən çox artırılaraq 75 faizə çatdırılıb. Yeni şəbəkələrin inşası, mövcud sistemin rekonstruksiyası və sayğaclaşmanın sürətləndirilməsi nəticəsində su itkiləri azaldılıb və bu istiqamətdə kompleks tədbirlər davam etdirilir. Toplanan və zərərsizləşdirilən tullantı suların xüsusi çəkisinin artırılmasına gəlincə deyə bilərik ki, icra olunan layihələr çərçivəsində hər bir rayon mərkəzi və şəhərdə tikilən tullantı sutəmizləyici qurğular bu hədəfə nail olmağımıza imkan verəcək. Yeri gəlmişkən, bu günlərdə cənab Prezidentin iştirakı ilə açılışı keçirilmiş layihə çərçivəsində Şamaxı şəhərində müasir bioloji tullantı sutəmizləyici qurğu tikilərək istismara verildi, Qobustan şəhərində isə qarşıdakı aylarda belə bir qurğunun tikintisinə başlanılacaq.

Abşeron yarımadasına gəldikdə bütün bu məsələlər Master Planda öz əksini tapıb və artıq onun bir hissəsi icra olunub. Belə ki, Bayıl-Bibiheybət-Lökbatan, Novxanı-Sumqayıt kanalizasiya kollektorlarının inşası, Milli Park və Nobel prospekti ərazilərində görülmüş işlər nəticəsində Xəzər dənizinə təmizlənmədən axıdılan suların qarşısı alınıb. Hazırda Koreya İxdal-İxrac Bankının krediti hesabına Pirşağı qəsəbəsi yaxınlığında müasir tipli yeni təmizləyici qurğu inşa olunur. Bütün bunlar ekoloji vəziyyətin yaxşılaşmasına və tullantı suların zərərsizləşidirilməsinə hesablanmış uğurlu addımdır.

Ümumilikdə, Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin reallaşdırılması əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə səbəb olacaqdır.

# "Yeni Azərbaycan Partiyasının seçki qələbələri"

*Ağstafada bu mövzu ətrafında silsilə tədbirlər davam edir*




Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ilə bağlı YAP Ağstafa rayon təşkilatının silsilə tədbirləri davam edir. "Yeni Azərbaycan Partiyasının seçki qələbələri" mövzusunda növbəti tədbir Dağkəsəmən kəndində keçirilib.

Tədbiri giriş sözü YAP Ağstafa rayon təşkilatının şura üzvü Kamran Abbasov açaraq, qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası respublikamızda ən güclü, ən mükəmməl siyasi partiyadır və ictimai nüfuzuna görə, onunla müqayisə edilə biləcək başqa partiya mövcud deyil: "Cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dediyi kimi, artıq Yeni Azərbaycan Partiyası regionun ən güclü siyasi qüvvəsidir. Yeni Azərbaycan Partiyasının böyük seçki təcrübəsi var. Təsadüfi deyil ki, 1993-cü ildən ötən müddət ərzində ölkəmizdə keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərinin qalibi YAP olub. Bu qələbələr Yeni Azərbaycan Partiyasının cəmiyyətdəki yerinin möhkəm olduğunu, həmçinin, dövlətçiliyimizin möhkəmləndirilməsi və ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq, xalqın bu təşkilata böyük etimad göstərdiyini təsdiq edir".



Şura üzvü Tofiq Bayramov, Dağkəsəmən kənd ərazi ilk partiya təşkilatının sədri Şahlar Şıxməmmədov, Dağkəsəmən kənd 2 №-li tam orta məktəbin direktoru Təranə Abdullayeva, həmin kəndin 1№-li tam orta məktəbinin direktoru Mahir Nəbiyev, kəndin 1 №-li tam orta məktəbin müəllimi Dürdanə Mahmudova və digər çıxış edənlər də öz çıxışlarında ölkədə keçirilən bütün seçkilərdə, Yeni Azərbaycan Partiyasının qələbə qazanmasında əsas meyar kimi, partiyada Ulu Öndər Heydər Əliyev missiyasının şərəflə, məsuliyyətlə, fədakarlıqla yerinə yetirilməsinin olduğunu vurğulayıblar.

**Rövşən RƏSULOV**

# "YAP - 25 il uğurla"




Yevlaxda Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibəti ilə "YAP-25 il uğurla" devizi altında gənclər arasında futbol turniri keçirilib. Yubiley münasibəti ilə keçirilən şəhər çempionatında 12 komanda mübarizəyə qoşulub.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev partiyanın yaranma tarixindən və müstəqil Azərbaycan Respublikasının həyatında əsas yer tutan Yeni Azərbaycan Partiyasının rolundan geniş söhbət açaraq, bildirib ki, Yeni Azərbaycan Partiyası xalqla dövlət arasında bir səmimiyyət körpüsüdür və Prezident İlham Əliyevin rəhbərliyi ilə bu partiya xalqımızı xoşbəxt gələcəyə doğru uğurla aparcaqdır.



Sonra çıxış edən Yevlax şəhər icra hakimiyyəti başçısının birinci müavini Qənimət Qaraşov Yeni Azərbaycan Partiyasının 25 illik uğurundan bəhs edərək, faktları və hadisələri bir daha diqqət mərkəzinə gətirib. Bildirib ki, Yeni Azərbaycan Partiyasının təşkil etdiyi bu kimi yarışlar gənclərimizin sağlam böyüməsinə, eləcə də, şəhərimizdə idmanın inkişafına böyük töhfədir. Sonra oyunlara start verilib.

**R.HÜSEYNOVA**

# YAP Ağdam rayon təşkilatının Ağdam Musiqi Kolleci ərazi ilk partiya təşkilatında tədbir keçirilib



Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi münasibətilə YAP Ağdam Musiqi Kolleci ərazi ilk partiya təşkilatında tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Ağdam Musiqi Kolleci ərazi ilk partiya təşkilatının sədri Laura Ağayeva Yeni Azərbaycan Partiyasının yaranma tarixinə nəzər salaraq, bildirib ki, partiya çox mürəkkəb bir şəraitdə tarixi zərurətdən yaranıb. Partiyanın 25 illik tarixinə diqqət çəkən ərazi ilk partiya təşkilatının sədri bu zaman kəsiyində YAP-ın Azərbaycan xalqı qarşısında gördüyü işləri yüksək dəyərləndirib.



YAP fəalları Xədicə Mehdizadə və Teymur Köçərli çıxışlarında YAP-ın bu gün ölkəmizin ictimai-siyasi həyatının aparıcı qüvvəsinə çevrildiyini, regionun ən iri və ən güclü siyasi partiyalarından biri olduğunu qeyd ediblər: "Yeni Azərbaycan Partiyasının yaranması, təşəkkülü və uğurlu fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin dövləti və xalqı qarşısında misilsiz xidmətlərinin bariz nümunəsidir".

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyasının Ağdam rayon təşkilatının baş məsləhətçisi Səyyad Mirzəyev diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev ideyalarını özünün ideoloji və siyasi mübarizəsinin əsas silahı kimi mənimsəyən Yeni Azərbaycan Partiyası ötən 25 il ərzində bir çox uğurlara imza atıb: "Partiyamızın sıraları genişlənərək 700 mini ötmüş, beynəlxalq nüfuzu artmışdır. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin titanik fəaliyyəti, partiyamızın inkişafının və qazandığı uğurların əsasını təşkil edir. Azərbaycanın müstəqillik dövründə bu müddət ərzində ölkəmiz bir çox ciddi sınaqlarla üzləşmiş, tariximizin ən ağır və ən faciəli hadisələrini yaşamışdır. Ümummilli Lider Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində respublikamız bu sınaqlardan şərəflə çıxmış və bu gün dünyanın inkişaf etmiş ölkələri sırasında layiqli yerini tutmuşdur".

**ZÜMRÜD**

# Şabranda YAP-ın 25 illik yubileyi ilə bağlı tədbirlər davam edir



Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi ilə əlaqədar, YAP Şabran rayon təşkilatının tədbirlər qrafikinə uyğun olaraq, Şabran şəhər 4 nömrəli tam orta məktəb ərazi ilk partiya təşkilatında tədbir keçirilib. Tədbiri giriş sözü ilə ərazi ilk partiya təşkilatının sədri Xatirə Aslanova açaraq, YAP-ın 25 ildə keçdiyi möhtəşəm və şərəfli yoldan, partiyının fəaliyyətindən danışıb.



Tədbirdə çıxış edən YAP üzvü olan müəllimlər partiyanın xalqımıza verdiyi dəyərlərdən söz açıblar.

Görüşdə YAP Şabran rayon təşkilatının sədr müavini Füzili Hüseynov Ümummilli Lider Heydər Əliyevin yaratdığı ümumxalq partiyası haqqında söz açıb və bir daha Ümummilli Lider Heydər Əliyevin söylədiyi devizini "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tədbir iştirakçılarının diqqətinə çatdırıb.

**RƏFİQƏ**

***Mötəbər beynəlxalq təşkilat olan BMT-nin yüksək tribunasına çıxan hər bir kəs fikirlərində diqqətli olmalı, onların məsuliyyətini anlamalıdır. Bu təşkilatın tarixində onun tribunasından dahi şəxsiyyətlər çıxış edib, dünyanın ağrılı problemləri barədə həqiqətləri söyləyiblər. Təəssüf ki, bir sıra hallarda BMT-yə heç yaraşmayan, onun səviyyəsində çıxış edə bilməyən "siyasətçilər" də həmin tribunadan danışa bilirlər. Ermənistana rəhbərlik edən Serj Sarkisyan bunun son nümunəsidir. Erməni lider orada Azərbaycan və Türkiyə əleyhinə tam əsassız, iftira və hədyan xarakterli fikirlər ifadə edib. O, sözün həqiqi mənasında dünyanı aldatmağa çalışıb. Sarkisyanın çıxışının məntiqi analizi onun yaramaz, şərəfsiz, ləyaqətsiz, şəxsiyyətini itirmiş bir nadanın xəstə təxəyyülündən doğan, böhtan, iftira və şər dolu bir cəfəngiyat olduğunu göstərir. Lakin, nədənsə, BMT kimi nüfuzlu təşkilat belə adamları da dinləməyə imkan verir. Bu səbəbdən S.Sarkisyanın ifadə etdiyi fikirlərin əsassızlığını oxuculara izah etməyi lazım bildik.***

# BMT tribunasına hörmətsizlik: Serj Sarkisyan yalanları ilə dünyanı aldadır



## Siyasətdə mənəvi meyar: Sarkisyan bütün sərhədləri aşır

Azərbaycan xalqı həmişə regionda qonşularına böyük tolerantlığı ilə fərqlənib. Tarixə nəzər salsaq, bunun saysız-hesabsız nümunələrinin şahidi ola bilərik. O cümlədən ermənilərə Azərbaycanda bütün mümkün hörmətlər olub, onların hüquqları tam qorunub. Bunu Bakıda yaşamış istənilən erməninin öz dilindən eşitmək olar. Onlar indi də Bakının xiffətini çəkir, onun həsrəti ilə yaşayırlar. Lakin Ermənistanda siyasətçilər və şovinist vandallar başqa şeyə vay-şivən qurmaqda davam edirlər. Onlar vicdanını və tərbiyəsini itirmiş, qatil, özlərinin törətdiyi qətliamları başqalarının boynuna yıxmağa çalışan mənəviyyatsız insanlardır.

Serj Sarkisyan bunu BMT-nin Baş Assambleyasının 72-ci sessiyasında etdiyi çıxışında işlətdiyi hər cümlədə sübut etdi. O göstərdi ki, siyasətçi kimi nə məntiqi, nə vicdanı, nə də obyektivliyi var. Üstəlik, BMT kimi mötəbər bir beynəlxalq təşkilatın üzvlərinə yalan danışdığına görə daşıyacağı məsuliyyəti anlamayacaq dərəcədə hüquqi cəhətdən "keydir". Belə bir insanın hətta Ermənistan kimi qondarma bir dövlətə belə necə başçı "seçildiyini" sağlam məntiqlə anlamaq çətindir.

S.Sarkisyanın çıxışında nifrət və məhdud etnik maraqlara aludəçilikdən başqa heç bir məqam yoxdur. Elmdə belə bir metod var: hər hansı mətndə bir sözün neçə dəfə təkrarlanmasına uyğun olaraq mətnin məzmun və strukturunu da müəyyənləşdirmək olur. Sarkisyanın çıxışında "Ermənistan", "erməniçilik", "soyqırımı", "müharibə", "Arsax" tez-tez işlənən kəlmələrdir. Bu sözlər iki kontekstdə işlənib. Birincisi, Azərbaycan guya ermənilərə qarşı zor işlədib. İkincisi, Türkiyə "soyqırımı" törədibmiş, ancaq indi Ermənistanla əlaqə qurmaq istəmir. Bu şərtlərin çərçivəsində Azərbaycan və Türkiyə "orta əsr dəyərləri"ni daşıyan ölkələrdir. Bu səbəbdən də, "ay aman", BMT tədbir görməlidir. Üstəlik, sən demə, S.Sarkisyan bir neçə dəfə BMT tribunasından bu barədə "dünyanı xəbərdar edibmiş" (bax: Reçğ Prezidenta Serja Sarqsəna na 72-oy sessii Qeneralğnoy Assamblei OON / "president.am", 20 sentyabr 2017).

BMT kimi mötəbər bir təşkilat üçün uyğun olmayan məqamlardan biri təcavüzkar dövlətin başçısı olaraq S.Sarkisyanın başqasını hərbi təcavüzdə ittiham etməsindən ibarətdir. Çünki məhz BMT Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini təsdiqləyən və dərhal zəbt olunan torpaqlardan erməni silahlı quldur dəstələrinin çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib! Həmin sənədlərdə açıq-aydın yazılıb: Ermənistan Azərbaycanın işğal etdiyi ərazilərindən dərhal çəkilməlidir.

Bu faktı BMT-nin bütün üzvləri bilirlər. Bəs onda hansı əsasla S.Sarkisyanın məsələni tamamilə tərsinə təqdim etməsinə - Azərbaycanı zorakı göstərməsinə göz yumurlar? Orada Azərbaycan və Türkiyə nümayəndələrindən başqa vicdanı olan bir insan yoxdurmu ki, "BMT-nin qəbul etdiyi sənədlərə görə təcavüzkar, zorakı, işğalçı, insan haqlarını kobudcasına pozan ölkə Ermənistandır", desin?! Bununla həm S.Sarkisyanın BMT-nin özünə qarşı hörmətsiz davranmasına cavab verilmiş, həm də həqiqət dünya ictimaiyyətinə bir daha çatdırılmış olardı. Lakin hamısı ağzına su alıb oturur. Özünü Azərbaycana dost və hətta qardaş kimi göstərən İran və Rusiya nümayəndələri də dillənmirlər. Özlərini demokratiya, insan haqları və azadlığın beşiyi sayan ABŞ və Avropanın səsi batıb. Türkiyədə FETÖ-çüləri qoruyan Almaniya lal olub. Hanı sizlərin ədalətiniz, obyektivliyiniz, demokratikliyiniz? BMT-nin ortada olan 4 qətnaməsini belə S.Sarkisyan kimi dələduzlara və canilərə xatırlatmaq istəmirsiniz! Sizlər bununla dünyaya demokratiya yaymaq fikrindəsiniz? Heç vaxt alına bilməz!

Gürcüstan səsini çıxarmır. Ukrayna etirazını bildirmir. Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan heç olmasa, sual vermirlər! Türkiyədən başqa meydanda olan yoxdur. Acı da olsa, reallıqdır.

## Ədalətsizlik: yalançının cavabı verilməyəndə

Bu oyun nə vaxta qədər davam edəcək? Məsələ ondan ibarətdir ki, Ermənistan rəhbərliyi hər dəfə yalan, böhtan və şər danışır, ona cavab verilmədikcə daha çox yalana əl atır. Bilir ki, nə desə, havadarları qəsdən dillənməyəcək, bir qisim dövlət işə qarışmaq istəməyəcək, bəziləri isə qorxudan səsini çıxarmayacaq. Lakin bu cür münasibət bütün dünyaya yalan və böhtanın ayaq açmasına, ədalətsizliyin geniş yayılmasına aparıb çıxarır ki, bu da bəşəriyyət üçün ciddi təhlükədir.

Bu fikirlərin işığında Serj Sarkisyanın BMT-dəki çıxışının bir sıra məqamlarına nəzər saldıqda, yaranmış vəziyyətin faciəviliyini daha aydın duya bilərik. Ermənistana rəhbərlik edən adam deyir: "Azərbaycan özünün nəzarəti altında qalan ermənilərin böyük mədəni irsini ardıcıl olaraq məhv etməkdədir" (bax: əvvəlki mənbəyə). Sual olunur: Azərbaycan harada və konkret hansı erməni mədəniyyət nümunələrini məhv edib? Bir misal belə göstərə bilmir sarkisyanlar.

Lakin Azərbaycan tərəfi konkret faktlarla göstərir ki, erməni vandalları Şuşada, Xocalıda, Göyçədə, İrəvanda, Zəngəzurda, Zəngibasarda, Dərələyəzdə və başqa yerlərdə Azərbaycan mədəniyyət irsini vəhşiliklə məhv ediblər. Məsələn, Aşıq Ələsgərin qəbri təhqir olunub və dağıdılıb, Aşıq Alıdan əsər-əlamət qalmayıb, Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri güllələnib və təhqir olunub, azərbaycanlıların qəbiristanlıqları, eləcə də Şuşa, Ağdam məscidləri dağıdılaraq təhqir olunub və uyğun olmayan təyinatla istifadə edilir.

Bundan başqa, Azərbaycan tərəfi Gürcüstandakı erməni kilsəsini təmənnasız şəkildə qazla təmin edir. Azərbaycan Avropanın bir sıra ölkələrində xristian mədəniyyət abidələrini bərpa edib və bu işi davam etdirməkdədir. Bəs Ermənistan dünyada (hələ Azərbaycanı demirik) hansı müsəlman mədəniyyət abidəsi ilə bağlı xeyirli iş görüb? Ermənistan hansı müsəlman xalqının mədəni irsinin qorunması üçün addım atıb? Heç bir nümunə yoxdur. Əvəzində daim ittiham, günahlandırma, göz yaşları, ağlama, sızlama və s.

S.Sarkisyan sözlərinə davam edərək daha böyük yalana imza atır. O deyir: "2016-cı ildə Azərbaycan silahlı qüvvələri mülki şəxslərə və hərbçilərə qarşı hərbi cinayətlər törədib. Burada onu qeyd etməyə bilmirəm ki, hətta bu vəhşiliyi edənlərdən birinə Azərbaycan prezidenti şəxsən yüksək dövlət mükafatı verib" (bax: əvvəlki mənbəyə). Doğrudan da, S.Sarkisyan əslində özünə gülür və başqalarının da ona gülməsinə imkan yaradır. Azərbaycan Ordusu hər zaman öz torpaqlarında düşmənə qarşı hərbi əməliyyat keçirib. Aprel döyüşləri də onlardan biri kimi erməni təxribatına cavab addımı olmuşdur. Azərbaycan Ordusu işğalçı ilə necə davranmalıdır? Əgər o, sözlə işğal etdiyi ərazidən çıxmırsa, onda silahla çıxarılacaq. BMT Nizamnaməsinə görə, bu, Azərbaycanın təbii haqqıdır.

Bundan əlavə, həmin hadisələrdə dinc əhaliyə qarşı qətliam törədən məhz erməni ordusu oldu. Bizim kəndləri toplardan atəşə tutdu, nəticədə, mülki əhali arasında itki oldu. Sonra da Alxanlı kəndinə atılan mərmi ilə kiçik qız uşağı qətlə yetirildi. Bütün bunları gizlətmək mümkün deyil. Ola bilsin ki, S.Sarkisyan haradasa ikiüzlülük edər, yalan danışar, lakin tarix əlini onun yaxasından çəkməyəcək və etdiyi bütün cinayətlərə, atdığı şər-böhtanlara görə gec-tez ədalət mühakiməsi qarşısında cavab verəcək.

Nəhayət, S.Sarkisyanın çıxışındakı böyük yalanlardan bir misal da gətirə bilərik. O, Azərbaycanı ermənifobiyada günahlandırmağa çalışır, onu dövlət siyasətinin tərkib hissəsi adlandırır (bax: əvvəlki mənbəyə). Bu məqamı ortaya atmaqla S.Sarkisyan Ermənistanda real mövcud olan islamofobiyanı ört-basdır etmək istəyir, üstəlik, Azərbaycanın illərdir dövlət səviyyəsində apardığı multikulturalizm, tolerantlıq, dini dözümlülük siyasətinə kölgə salmağa cəhd göstərir. Halbuki Azərbaycana heç olmasa bir dəfə səfər edib, dinlər, mədəniyyətlər, sivilizasiyalararası dialoqa həsr olunmuş tədbirlərdə iştirak edən hər kəs Serj Sarkisyana gülür, onun xəyal aləmində olduğuna, içindəki nifrətin varlığını tamamilə insanlıqdan çıxardığına şübhə etmir.

Azərbaycanda yaşayan xristianlar, yəhudilər, elə ermənilərin özləri (Ermənistanda nə qədər azərbaycanlı var? Heç nə qədər! Budur, demokratik Ermənistan?) dəfələrlə bəyan ediblər ki, bu ölkə onlar üçün bütün şəraiti yaradıb, onların mədəni abidələri qorunur, kilsələr, sinaqoqlar işləyir və heç bir maneə ilə qarşılaşmırlar.

Serj Sarkisyanın çıxışında söylədiyi fikirlərlə özünü gülünc vəziyyətinə salan, təlxəkliyini təsdiq edən başqa məqamlara da toxuna bilərdik. Lakin, bizcə, onun kimi "siyasətçilərin" əsl kimliyini zaman və ədalət mühakiməsi dünyaya bir daha nümayiş etdirəcək. O gün uzaqda deyil!

**Newtimes.az**

# Ermənistan danışıqları poza bilmədi

## Tahir Mirkişili: "Ehtimal var ki, prezidentlərin görüşü keçirilsin"



Müsahibimiz millət vəkili Tahir Mirkişilidir

***- Tahir müəllim, ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfər etdilər. Amerikalı həmsədr Endryu Şöfer Riçard Hoqland kimi Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox iddialı və Azərbaycanın maraqlarına uyğun olan bəyanatlar səsləndirdi. Doğrudanmı ABŞ Dağlıq Qarabağ münaqişəsinin həllində bu dərəcədə israrlı və maraqlıdır?***

- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində status-kvonun dəyişilməli olduğunu, artıq bütün beynəlxalq təşkilatlar, o cümlədən, ATƏT-in Minsk Qrupunun həmsədrləri də bəyan edirlər. Status-kvonun dəyişməməsi münaqişənin alovlanmasına və müharibənin başlanmasına səbəb olacaq. Belə görünür ki, münaqişənin alovlanmaması üçün danışıqlar prosesinin sürətlənməsi və nəticəyə təsir edəcək danışıqların aparılması gərəkliyini hər kəs anlayır. ABŞ-dan olan yeni həmsədr Endryu Şöfer də bu reallığı bilərək, öz fəaliyyəti ilə prosesə yeni bir ab-hava gətirmək istəyir ki, bu da, əslində, Azərbaycanın da daim bəyan etdiyi prinsiplərlə uzlaşır.

***- Necə düşünürsünüz, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin intensiv xarakter daşıyan görüşləri və regiona səfərləri, nəhayət, Sarkisyan rejimini münaqişənin həllində konstruktiv mövqe tutmağa məcbur edə biləcəkmi?***

- Təəssüf ki, uzun illər ərzində, ATƏT Minsk Qrupunun səyləri öz lazımi nəticəsini verməmişdir. Düzdür, bu illər ərzində Ermənistan daha da təklənmiş, dünya ictimaiyyətinin gözündə bir işğalçı kimi tanınmışdır. Ancaq Sarkisyan rejimi qeyri-qanuni və cinayətkar rejim olduğundan, onlar üçün Ermənistan xalqının marağı da ciddi əhəmiyyət kəsb etmir. Belə bir rejimə ancaq təzyiq etmək və sanksiya tətbiq etmək lazımdır. Bunu isə, təəssüf ki, ikili standartlar üzündən hələ də müşahidə etmirik. Ancaq istənilə halda, Azərbaycan öz ədalətli məqsədinə çatmaq üçün bütün vasitələrdən istifadə etmək hüququnu reallaşdırır.

***- BMT-nin Baş Assambleyasında 72-ci sessiyadan sonra belə bir fikir səslənirdi ki, Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilə bilər. Həmsədrlər bu istiqamətdə də geniş iş aparırlar. Doğrudanmı prezidentlərin görüşü yaxın vaxtlarda reallaşacaq?***

- Minsk Qrupunun həmsədrləri çalışırlar ki, belə bir görüşü təşkil etsinlər. Ermənistan danışıqlardan qaçmağa çalışsa da, bunun onlar üçün daha faciəvi nəticə verəcəyini anlayaraq, danışıqlara qayıtmaq niyyətlərini elan ediblər. Prezident İlham Əliyev keçirilən müşavirədə Azərbaycanın danışıqlara hər zaman hazır olduğunu bəyan edib. Bütün bunlardan sonra, ehtimal var ki, prezidentlərin görüşü keçirilsin. Ancaq əsas məsələ görüşün mənalı və nəticəyə söykək olmasıdır.

**GÜLYANƏ**



# Avstriyalı şair BSU-nun qonağı olub

***Müasir Avstriya poeziyasının görkəmli nümayəndəsi, bir çox nüfuzlu beynəlxalq mükafatlar laureatı Karl Lubomirskinin BSU-nun Filologiya fakültəsinin tələbələri ilə görüşü keçirilib. Alman dili ixtisası üzrə təhsil alan tələbələr qarşısında çıxış edən şair gənclərə Avstriya ədəbiyyatından, müasir poeziyanın qarşısında duran vəzifələrdən, məşhur alman şairi, Nobel mükafatı laureatı Günter Qrafla görüşlərindən, öz həyat və yaradıcılıq yolundan ətraflı söhbət açıb. Sonra Karl Lubomirski gənclərə öz yeni şeirlərini oxuyub və onları maraqlandıran suallara cavab verib.***

Dil faktorunun hər şeydən önəmli olduğunu vurğulayan şair 1962-ci ildən İtaliyada yaşamasına və bu dili mükəmməl bilməsinə baxmayaraq, əsərlərini yalnız almanca yazdığını deyib. "Mən alman dilində sözlərin hərarətini hiss edirəm" deyən sənətkar yaradıcılığının Avstriya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini və bir çox mükafatlara layiq görüldüyünü də nəzərə çatdırıb. Sonra şair gənclərə özünün tərcüməçilik fəaliyyətindən və tərcüməçi qarşısında duran vəzifələrdən danışıb. Əsərlərinin 22 dilə tərcümə olunduğunu qeyd edən Karl Lubomirski tərcüməçiliyin xüsusi istedadla bərabər, tərcüməçidən zəhmətkeşlik tələb etdiyini vurğulayıb. Görüşdə şairin bu yaxınlarda Azərbaycanda çapdan çıxmış "Özümdən elə uzağam" adlı şeirlər kitabı da gənc oxuculara təqdim olunub. Qeyd edək ki, kitabı orijinaldan dilimizə tanınmış tərcüməçi Çərkəz Qurbanlı çevirib.

Görüşdən sonra avstriyalı qonağı BSU-nun rektoru, professor Nurlana Əliyeva qəbul edib. N.Əliyeva poeziyanın sərhədinin olmadığını, onun ölkələri adlayıb qitədən-qitəyə yol açdığını bildirib. BSU-nun rektoru Avstriya şairinin gənclər tərəfindən hərarətlə qarşılanmasını da, məhz bu sərhədsizliyin bir nümunəsi olduğunu qeyd edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Karl Lubomirski kitabının Bakıda nəşrindən məmnun qaldığını və heç bir ölkədə belə səmimiyyət görmədiyini qeyd edib. Qonağı Avstriyanın Bakıdakı səfirliyinin müavini Volfqanq Marxardt və səfirliyin Mədəniyyət məsələləri üzrə əməkdaşı Kathavina Mayvhofer müşayiət edib.

**ZÜMRÜD**

# Sədaqət Vəliyeva: "Son 9 ayın yekunları Azərbaycanın uğurla inkişaf etdiyini sübut edir"



"Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasəti Azərbaycana hər gün yeni-yeni nailiyyətlər qazandırır. Biz bunu daxili və xarici siyasət sahəsində, eləcə də, sosial və mədəniyyət sektorlarında da müşahidə edirik. Əlbəttə ki, daha çox diqqət cəlb edən sfera da, məhz iqtisadiyyatdır". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, ötən ildən başlayaraq, qlobal böhranın təsirlərini minimuma endirmək və ölkəmizi yenidən dinamik inkişaf mərhələsinə çatdırmaq üçün reallaşdırılan islahatlar artıq öz bəhrəsini verməkdədir: "Belə ki, bu ilin son 9 ayının yekunlarına görə, qeyri-neft iqtisadiyyatımız 2,5 faiz, eləcə də, qeyri-neft sənayesi 3,1 faiz və kənd təsərrüfatı 2,8 faiz artıb. Bununla yanaşı, xarici ticarət dövriyyəsi 7 faiz artıb, xarici ticarətin müsbət saldosu isə 4,4 milyard dollara bərabər olub. Hətta dünya bazarlarında neftin qiymətinin hələ də aşağı səviyyədə olmasına baxmayaraq, Azərbaycanın valyuta ehtiyatları 4,5 milyard dollar artaraq, 42 milyard dollara çatıb. Ötən müddət ərzində, yeni istehsal müəssisələrinin yaradılması, aqroparkların və sənaye məhəllələrinin işə salınması nəticəsində yeni iş yerlərinin yaradılması prosesi də uğurla gedib. Elə bu səbəbdəndir ki, son 9 ay ərzində 226 min yeni iş yeri yaradılıb, onlardan 171 mini isə daimidir. Göründüyü kimi, son 9 ayın yekunları Azərbaycanın uğurla inkişaf etdiyini sübut edir".

"Ölkəmizin tərəqqisi davamlı, dinamik və hərtərəfli xarakter alıb"- deyən Sədaqət Vəliyeva əlavə edib ki, əldə olunan nailiyyətlər, bir daha əminlik yaradır ki, Azərbaycan 2017-ci ili də uğurla başa vuracaq.

# Akademik İsa Həbibbəyli: Qloballaşan dünya ana dilimizin saflığının qorunmasını tələb edir

Qloballaşma şəraiti dillərə, ədəbiyyatlara və mədəniyyətlərə ciddi təsir göstərib. Qloballaşan dünya bizdən ana dilimizin saflığının qorunmasını tələb edir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli "Azərbaycan dilinin müasir problemləri: reallıqlar və vəzifələr" mövzusunda keçirilən konfransda deyib.

Dilçilik İnstitutunun apardığı monitorinqlərdən danışan İ.Həbibbəyli bildirib ki, Azərbaycan dilinin daxili imkanları hesabına yaranmış sözlərin olmasına baxmayaraq, bəzi aparıcılar, yazarlar özlərini savadlı göstərmək üçün xarici terminlərdən istifadə edirlər. Avropa dilləri ilə yanaşı, Türkiyə türkcəsindən də dilimizə sözlər daxil olur. Ancaq o sözlərin Azərbaycan dilində qarşılığı var. Buna görə də dialektlərdə işlənən sözlər, eləcə də arxaikləşən sözlər yenidən aktivləşdirilməlidir. İ.Həbibbəyli 2013-cü ildə nəşr olunan "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ni tələsik nəşr adlandırıb. Bildirilib ki, bu lüğətə lüzumsuz sözlər daxil edildiyindən qüsurludur. Hazırda yeni orfoqrafiya qaydaları hazırlanır və bu qaydalar müvafiq komissiyanın müzakirəsinə təqdim ediləcək. Akademik, eyni zamanda, orfoepiya lüğətində də boşluqların olduğunu diqqətə çatdırıb. AMEA-nın vitse-prezidenti dilçi alimləri mətbuatda ana dilimizin saflığının qorunması ilə bağlı məqalələrlə çıxış etməyə çağırıb.

# Heydər Əliyev Beynəlxalq Aeroportunda Azad İqtisadi Zona yaradılacaq




Heydər Əliyev Beynəlxalq Aeroportunda Azad İqtisadi Zona yaradılacaq. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı "Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov Bakıda keçirilən Caspian Air Cargo Summit 2017 VII Beynəlxalq konfransında deyib. O bildirib ki, layihənin icrası üçün qanunvericilik bazası artıq təsdiq edilib. Onun icrası ilə bağlı tədbirlər planı hazırlanır.

# Demokratik dəyərlərə sədaqət Avropanı narahat edir

*Mitinqlər, küçə yürüşləri və bu kimi pozuculuğa cəhdlər ali prinsipləri zədələmək məqsədi daşıyır*



***B**u, bir faktdır ki, Avropa institutlarının demokratik dəyərlər əsasında idarə edildiyi bildirilsə də, əslində, lobbiçiliyin təsirindən azad deyil və bu lobbiçiliyin mənfi təsiri üzdə görünməsə belə, hər an açıq şəkildə özünü büruzə verir. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsini və bunları - BMT-nin 4 qətnaməsi, AŞPA-nın, ATƏT-in və digər beynəlxalq təşkilatların qərarları ilə təsdiq edilməsini bütün dünya ictimaiyyəti bilirsə də, ölkəmiz ədalətsiz münasibətlərlə qarşılaşır, ikili standartlar prinsipi sərgilənir və hətta şər-böhtan xarakterli dezinformasiyalar yaymaqdan da çəkinmirlər.*

Müstəqil siyasəti, dinamik inkişafı, yüksək tolerantlığı ilə diqqəti çəkən Azərbaycan, ölkədə demokratik təsisatların azad şəkildə fəaliyyət göstərdiyi, QHT-lər, media orqanları, siyasi partiyalar, vətəndaş cəmiyyətinin bütün elementlərinin fəaliyyətinin sərbəst şəkildə təmin edildiyi, hər zaman Avropa İttifaqı və ona üzv olan ölkələrlə bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığa hazır olduğu halda, Prezident İlham Əliyevin Avropa İttifaqı ilə əlaqələrin daha da yaxınlaşmasına qərarlı olduğu bir vaxtda, Azərbaycanın bu imkanları, dostluq və əməkdaşlıq jestləri Avropa institutları tərəfindən adekvat dəyərləndirilmir.

## Məkrli qüvvələrin planları reallığa çevrilmədi

Əsrlər boyu malik olduğu multikultural dəyərləri uğurla qoruyub- saxlayaraq inkişaf etdirən, bu sahədə beynəlxalq ekspertlər tərəfindən dünyaya örnək model kimi göstərilən Azərbaycanın əldə etdiyi nailiyyətlərdən hər zaman narahatlıq keçirən dairələr də mövcuddur və bu qüvvələrin sırasında ilk yerdə, təbii ki, erməni diasporu, onların havadarlıq etdikləri qurumlar dayanır. Bir müsəlman dövləti olaraq, Azərbaycanın bu qədər inkişaf etməsi, o cümlədən, bütün dünya ilə əməkdaşlıq qurması və son dərəcə muasir olması bu gün Avropanın müəyyən dairələrini ciddi surətdə narahat edir. Reallıqdan xeyli dərəcədə kənarlaşmış Avropa institutları artıq heç nəyə əsaslanmamış ambisiyalarından vaz keçərək, ilk növbədə, özləri öz üzərlərində ciddi təhlil aparmalı, bir qrup erməninin girovundan azad olaraq, nəhayət, reallıq hissini bərpa edib, səhvlərini aradan qaldırmalı, Azərbaycana qarşı qəbul etdiyi ədalətsiz, qeyri-obyektiv və yanlış qərarlardan imtina etməlidirlər.

Məkrli niyyəti olan qüvvələr üçün Azərbaycan çox münbit şəraiti olan diyar, təbii sərvətlərlə zəngin ölkə, geopolitik baxımdan da əlverişli zona hesab olunursa, milli xainlər üçün də bu, gəlir mənbəyi, xəyanət müqabilində əldə edəcəkləri vəsait hesab olunur. Bu maraqların toqquşması fonunda müxalifət nümayəndələrinin, mütəmadi olaraq, xarici səfərləri ikrah doğurur. Çünki məqsəd və məramları bəlli olan bu insanların səfərləri, ümumilikdə, fəaliyyətinə xəyanət kimi qiymətləndirilməlidir. Dəfələrlə dəvət adı altında səfərlərinin, əslində, ezamiyyət xarakterli olduğunu etiraf etmələri bunu deməyə əsas verir ki, guya hansısa təşkilatın dəvəti ilə xarici səfərə yollanmağa hazırlaşan Cəmil Həsənlinin dəvətli olubolmaması da araşdırılsa, məlum olacaq ki, sən demə, dünyada belə bir təşkilat yoxdur. Məqsəd erməni dəyirmanına su tökməkdən, onların havadarlıq etdiyi qurumların şər-böhtan xarakterli qarayaxma kampaniyalarında yaxından iştirak etməkdən, bir sözlə, satqınlıqdan başqa bir şey deyil.

Mitinqlərdə Milli Ordumuz barədə həqiqətə uyğun olmayan fikirlər səsləndirən "Milli Şura" funksionerlərinin mövqeyi göz qabağındadır və düşmən dəyirmanına su tokmək kimi dəyərləndirilən bu addım haqlı olaraq ictimaiyyət tərəfindən hiddətlə qarşılanır. Azərbaycan xalqı öz hərbi qüdrətinə, Milli Ordusuna inanır və bu satqınlıqla dolu ifadələri səsləndirənlərə narazılığını da gizlətmir. Mütəmadi olaraq, keçirilən hərbi təlimlərin bir neçə məqsədi var və onun da içində hərbi diplomatiya aləti olaraq güc nümayişi də mühüm yer tutur. Bu baxımdan, nəinki Əli Kərimli və onun yaxın ətrafı, hətta havadarları belə nümayiş etdirilən bu güclün danılmaz olduğunu yaxşı bilir və Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi hərbi təlimlər də, məhz yaxın zamanlarda ölkəmizin öz ərazi bütövlüyü və süverenliyinin tam bərpa edilməsinə hesablanmış praktik məşğələdir.

## Əli Kərimlinin ümidləri alt-üst edildi

Hər dəfə mitinqdə fiaskoya uğrayan müxalifət son zamanlar müxtəlif seqmentlər üzrə, bəzən yaş qruplarına, bəzən də peşə-ixtisas qruplarına bölməklə, ictimaiyyətə yalan vədlərlə müraciət edir. Daha çox inancı insanları mitinqlərə cəlb etmək üçün əldən-ayaqdan gedən Ə.Kərimlinin son vaxtlar ümid bəslədiyi dini kəsimin də qəzəbinə tuş gəlməsi əbəs deyil. Çünki vicdan, əqidə azadlığı adı altında şüarlar səsləndirdikdə, hakimiyyətdən azadlıqları tələb olunan insanların adları arasında Əbu Cihad ləqəbi ilə, əslində, bir terrorçu kimi tanınan Eldəniz Məmmədovun da adının yer alması onların qəzəbinə səbəb olub. Hətta AXCP sədrindən bununla bağlı izahat verməsini tələb etmələri də başa düşüləndir. Hər bir halda. Ə.Kərimli yaxşı başa düşür ki, onun bu səhvi artıq bundan sonra inanclı insanları ondan çox uzaqlaşdıracaq.

Göründüyü kimi, sosial sifariş olmadığı üçün "Milli Şura" hər vasitəyə əl atsa da, nəticəsiz qalır və bundan sonra da belə olacağı istisna edilmir. Təbii ki, hər bir mənada, dəstəyi xarici havadarlardan alan qurumun xalqın maraqlarından çıxış etməyəcəyi bütün ictimaiyyətə bəllidir. Azərbaycan xalqı öz mənafelərini güdən, xarici havadarların maraqlarından çıxış edən və nəticədə, anti-Azərbaycan qüvvələrə satılaraq xəyanət yolunu tutmuş ünsürlərə heç vaxt dəstək verməyəcək.

***İnam HACIYEV***

## Elçin Babayev: Günəşdə formalaşmış növbəti tac dəliyi geomaqnit qasırğasına səbəb olacaq

**G**ündüz ulduzumuz olan Günəşin səthində daim tac dəlikləri formalaşır. Günəşin diskində tünd hissələr kimi müşahidə edilən tac dəliklərində maqnit qüvvə xətləri, demək olar ki, açıq olur. Bu səbəbdən yüklü qaynar plazma hissəcikləri həmin hissələrdən Günəşi asanlıqla tərk edərək yüksəksürətli Günəş plazma küləyi şəklində planetlərarası fəzaya, həmçinin Yerə doğru yönəlir. Bunu AZƏRTAC-a Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası direktorunun müavini, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Elçin Babayev bildirib. Bu gün Günəşin səthində ləkələrin müşahidə olunmadığını vurğulayan E.Babayev deyib: "Lakin burada yaranmış tac dəliyinin də çox maraqlı forması var, o, Günəşin görünən diskinin yuxarı hissəsi boyunca yönəlib. Bunun təsirini isə oktyabrın 11-dən və ya 12-dən başlayaraq gözləyirik. Bu təsir adətən Yerin maqnit sahəsinin həyəcanlaşmasına gətirib çıxarır. Fiziki şəraitdən asılı olaraq (Günəş küləyinin sürəti, planetlərarası maqnit sahəsinin istiqaməti və s.), geomaqnit qasırğası da yarana bilər. Bu dəfə G1 sinifli geomaqnit qasırğası gözlənilir".

Alim diqqətə çatdırıb ki, hazırda atmosfer təzyiqi 760 mm civə sütunudur. Geomaqnit indekslərindən biri olan Kp isə indi 0-1 arasında dəyişir (maksimum 9 olur), lakin gün ərzində getdikcə artacaq.



## Turbyern Yaqlandın qərəzli çıxışları daşa dəyir

**RƏFİQƏ**

***B**u gün Azərbaycanın tutduğu hərtərəfli inkişaf və tərəqqi yolu, xüsusilə, beynəlxalq aləmdə möhkəmlənən mövqeyi, müstəqil siyasət yürütməsi məkrli qüvvələr tərəfində qısqanclıqla qarşılanır. Həm də bu uğurlar bir çox siyasi dairələri, o cümlədən, AŞ və s. təşkilatlarda fəaliyyət göstərən və erməni lobbisinin dəstəyi ilə Azərbaycan əleyhinə köklənmiş ayrı-ayrı şəxslər bu uğurları həzm edə bilmirlər. Bu baxımdan, AŞPA-nın baş katibi Turbyern Yaqland da, məhz Azərbaycan qanunlarını zidd mövqe sərgiləməklə müvafiq həbs cəzası almış İlqar Məmmədovdan məlum məqsədləri üçün istifadə edib, şantajçılığla məşğul olur. Halbuki onun bu şantajı heç nəyi dəyişməyəcək. Çünki onlar bizə deyil, biz onlara minnət qoymalıyıq və bunun üçün bizim kifayət qədər əsaslarımız var.*

## Hansılar

Müxtəlif hadisələr fonunda Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən bir sıra Qərb və Avropa təşkilatlarının ölkədaxili olaylara yersiz müdaxilə etmələri, əslində, kifayət qədər təsdiq edir ki, burada məqsəd müstəqil dövlətimizi Qərbdən asılı vəziyyətə salmaqdır. Bu da mümkün deyilsə, təzyiqlər və böhtanlar vasitəsilə bunu reallaşdırmaqdan ibarətdir. Avropa Şurasının baş katibi T.Yaqlandın qərəzli açıqlaması, bir daha onun mövqeyi arxasında pərdəarxası maraqlar dayandığını sübut edir.

Əslində, həmin pərdəarxası məqamlar kimsəyə sirr deyil və zaman-zaman həmin maraqların ifşa olunması ictimaiyyətə də kifayət qədər bəllidir. Sadəcə, AŞPA kimi mötəbər bir qurum rəsmisinin diplomata, siyasətçiyə yaraşmayan qeyri-peşəkarlıq nümayiş etdirməsi, bunun fonunda Azərbaycanla bağlı hər bir məsələyə ikili standartlardan çıxış etməsi isbat edir ki, ortadakı maraq Azərbaycana qarşı təzyiq göstərmək cəhdindən başqa bir şey deyil. Halbuki istər mövcud məsələdə, istərsə də, başqa məsələlərdə Azərbaycan hakimiyyətinin rəsmi mövqeləri var və buna rəğmən, həmin mövqelərin üzərindən keçərək, tamamilə başqa istiqamətli fəaliyyət göstərməyə siyasi tərbiyəsizlikdən başqa ad vermək olmur.

## Yaqlandın qərəzçilik borcu

Qərəzçilik borcu olan T.Yaqlanda bu olaydan əvvəl jurnalistin ölümü ilə də bağlı qərəzli çıxışları da olub. Bir də onun xəmiri belə yoğrulub. AŞPA-nın baş katibi, yaxşı olardı ki, bu gün Qərbdə, eləcə də, Avropanın aparıcı ölkələrində baş verən bənzər olaylara qarşı da öz mövqeyini sərgiləsin. Hər halda, onun özü də yaxşı bilir ki, heç bir ölkə arzuolunmaz hadisələrdən sığortalı deyil. Bu baxımdan, Yaqland bu qədər demokratik və açıq dünyagörüşlü bir diplomat olduğunu hesab edirsə, bu zaman Azərbaycanda hakimiyyətlə QHT-lərin, media qurumlarının, o cümlədən, siyasi təşkilatların dialoqları barədə müsbət fikirlərini dünya ilə bölüşsün. Ancaq onun bu ətrafda hər hansı bir müsbət addım atacağı inandırıcı görünmür. Çünki ikili standart amilinin Yaqlanda, həmçinin onun kimi insanlara nə qədər sirayət etməsi kifayət qədər bəllidir. Daha yaxşı olardı ki, qərəz və təzyiq dili ilə danışmaqdansa, sussunlar. Ya da ölkəmizdə mövcud olan yeni demokratik mühit modelindən özləri üçün ibrət götürsünlər. Yox, əgər bunu də qəbul etmək gücündə deyillərsə, bu zaman onların AŞPA və s. adlı qurumlarda rəhbər postları tutub, qərəzçilik və "demokratiya carçılığı" etmələrinə də ehtiyac yoxdur.

# Əli Kərimli terrorçularla iş birliyində

## *Dağıdıcı müxalifət radikal dindarların dəstəyinə sığınıb*

**Satmağa adət etmiş AXCP sədri Əli Kərimli həm də biabırçı uğursuzluğa da adətkar olub. Belə olmasaydı, sentyabrın 23-də keçirilən biabırçı mitinq uğursuzluğundan sonra növbəti mitinq keçirmək istəyində olmazdı.**



Adamdan soruşarlar ki, "Milli Şura" və AXCP-nın birgə təşkil etdiyi mitinq iştirakçılarının əksəriyyəti radikal dindarlar olubsa, sabah kimləri toplayacaqsınız? Mitinqin uğursuz olmasının əsas səbəbi siyasi radikallar və dini ekstremistlər arasında daha çox maliyyə qopartmaqla yanaşı, sosial bazalarının sıfıra bərabər olmasıdır. Buna keçirilən mitinqlərdə dəfələrlə şahid olmuşuq və onunu da şahidi də olmuşuq ki, Ə.Kərimli islam pərdəsinə bürünərək, mütəşəkkil silahlı dəstə və cinayətkar birlik yaradan, hakimiyyəti zorla ələ keçirməyə və ya devirməyə çalışan radikal dindarlara geniş qucaq açır.

### Elçin Mirzəbəyli: "Əli Kərimli və dəstəklədiyi "dindarlar" Azərbaycan xalqının əleyhinə olan insanlardır"

Sözügedən məsələ ilə bağlı fikirlərini bölüşən Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, politoloq Elçin Mirzəbəyli hər iki qrupun məqsədinin daha çox maliyyə qopartmaq olduğunu bildirib: "Bu səbəbdən, oyun iştirakçısı olanların hər biri bu cür "mitinq"lərdə özlərini göstərməyə çalışırlar ki, aparıcı qüvvə bunlardır. Daxildəki rəqabət də onlara ayrılan xüsusi vəsait uğrunda mübarizənin nəticəsi kimi ortaya çıxır. Nə Ə.Kərimlinin, nə də radikal islamın islam dininin mahiyyətinə heç bir aidiyyəti yoxdur".

Onun sözlərinə görə, islam radikalizmi inkar edən, insanları mərhəmətə, humanizmə səsləyən bir dindir: "Bu baxımdan da, radikal düşüncə psixoloji baxımdan, ciddi problemləri olan insanlara xas xüsusiyyətdir. O insanlar ki, cəmiyyətin inkişafını təkamül yolu ilə yürüdülən siyasətdə deyil, aqressivlikdə, kində, dağıdıcılıqda görürlər, beləlri sağlam düşüncəli insanlar hesab oluna bilməzlər. Təbii ki, bu halda, onların gerçəkdən islam dininə heç bir aidiyyəti ola bilməz. O ki qaldı Ə.Kərimlinin radikal dindarlarla münasibətlərinə, bu, uzun illərdir ki, davam edir. Vaxtilə demokratiya və Qərb dəyərlərindən danışan bir insanın birdən-birə tamamilə fərqli istiqamətdə siyasət yürütməsi və şüarlar səsləndirməsi təsadüfi deyil". Diqqət yetirsək görərik ki, onu idarə edən dairələrin Aralıq dənizi hövzəsində yürütdüyü siyasətdə hansı metodlardan istifadə olunmuşdusa, hansı dağıdıcı hərəkətlər törədilmişdisə, bu gün bunlar həmin şəxs tərəfindən istifadə olunmaqdadırlar. Faktiki olaraq, əməllərində terrorçuluq amilləri sübuta yetirilmiş, Azərbaycan polisinə və vətəndaşına silah qaldırmış, hakimiyyəti və dövlətin konstitusion quruluşunu güc yolu ilə devirmək istəyən şəxslərin Ə.Kərimli və "Milli Şura" adlanan antimilli qurum tərəfindən müdafiə olunması da bu "proyekt"in ortaq bir məxrəcdən idarə olunduğunu sübuta yetirir. Ə.Kərimli üçün dəyərlərin heç bir fərqi yoxdur. Onun üçün ölçü, standart, ideoloji amillər yad məfhumdur. Nəticə etibarilə, bu adamın yürütdüyü siyasətin də siyasi proseslərin mahiyyətinə heç bir dəxli yoxdur. Deməli, Ə.Kərimli və dəstəklədiyi "dindarlar" elə Azərbaycan xalqının əleyhinə olan insanlardır".

### Əli Kərimli terrorçular üçün mitinq keçirir

"Milli Şura"nın sonuncu mitinqinə gələn adam sayının əvvəlkilərdən xeyli az olmasının səbəblərindən biri də dindarların zəif iştirakı idi. Həqiqətən də, bu dəfə "Məhsul"da saqqallı kişilər və çadralı qadınlar əvvəlkilərlə müqayisədə az gözə dəyirdilər. Deməli, meydana az adam çıxırsa, bu, o deməkdir ki, mitinqin təşkili üçün gələn pullar da azala, hətta kəsilə də bilər. Ona görə də, AXCP sədri özünə xas siyasi işbazlıqla növbəti mitinqi elə planlaşdırıb ki, itirdiyi dindar auditoriyasını yenidən geriyə qaytara bilsin.

Bu məqsədlə, əvvəla, mitinqi Məhərrəm ayına salıb, ikincisi isə, aksiyaya çağırış məqsədilə hazırlanan elanlarda "dini məhbus" kimi qələmə verdikləri şəxslərin içində "İŞİD" terrorçusu Eldəniz Məmmədovun da adını verməsidir. Bu, o E.Məmmədovdur ki, bütün şiə müsəlmanlarını kafir, yolunu azmış sayan və qətlini vacib hesab edən "İŞİD" terror təşkilatının ideologiyası uğrunda savaşaraq, qan töküb. "İŞİD"-in əsas düşmən kimi gördüyü məzhəblərdən biri, məhz şiəlikdir.

Ona görə də, bir "İŞİD" terrorçusunun adını Nardaran hadisələrinə görə həbs olunan şəxslərlə eyni sıraya yazmaqla Ə.Kərimli birmənalı olaraq, həm şiə dindarların, həm də onların bağlı olduğu mərkəzlərin ciddi qəzəbinə tuş gələcək. Bu, açılmazdır.

Eyni zamanda, Ə.Kərimli hansı məntiqlə "İŞİD" terrorçusunu "siyasi məhbus" kimi təqdim edərək, mitinqə adam toplayır və terrorçunun müdafiəsi üçün mitinq keçirən olub?

Bütün hallarda, bu addım Ə.Kərimliyə olduqca baha başa gələcək. Çünki böyük ehtimalla, təkcə şiə mərkəzləri yox, Qərbdəki bəzi dairələr də bundan sonra "İŞİD" terrorçusunu müdafiə edən şəxslə işləmək istəməyəcəklər.

Lakin xalqın etimadını itirmiş və bu etimadı heç vaxt qazana bilməyəcək "Milli Şura"nın keçirmək istədiyi növbəti mitinqi də ofsaydda qalacaq.

### Xarici qüvvələrin yeni "diriliş" planı

Bu, bir faktdır ki, ölkənin ictimai-siyasi xadimləri də bu cür qarşıdurma və məkrli planlarla təşkil edilən mitinqlərə etirazla yanaşırlar. Politoloq Qabil Hüseynlinin qənaətincə, cəmiyyətdə müxalifətə olan inam getdikcə azalır. O bildirib ki, Ə.Kərimli kimiilər insanları öz siyasi ambisiyalarına qurban verirlər: "Bu siyasi ambisiyalar ucbatından, həm başçılıq etdikləri partiyaların üzvlərinin taleyi üzərində oynanılır, həm də, bütövlükdə, xalqla bağlı onların üzərinə düşən missiyanın yerinə yetirilməsində ciddi problem yaranır. Buna görə də, xalq onlardan üz çevirməyə başlayır. Deyir, at hörüyünü çıxarıb bir yerə vuranda, zərbə iki də özünə dəyir. Bunlar da elədirlər. Yəni onlar xalqla aralarında olan uçurumu daha da dərinləşdirirlər".

"İnsanların dini etiqadlarından, onların duyğularından fərqli məqsədlər üçün istifadə etmək yolverilməzdir". Bunu isə mətbuata açıqlamasında Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, Milli Məclisin deputatı Fərəc Quliyev "Milli Şura"nın sentyabrın 23-də keçirdiyi mitinqə Ə.Kərimlinin radikal islamçıları da cəlb etməsi cəhdinə münasibət bildirərkən deyib. F.Quliyev bildirib ki, hər bir təşkilat qanunlar çərçivəsində mitinq keçirə, hansısa məsələ ilə bağlı fikirlər səsləndirə bilər: "Amma orada səsləndirilən fikirlər və hədəflər müəyyən olunmalıdır. Üstəlik, din amilindən, insanların dini etiqadlarından, onların duyğularından fərqli məqsədlər üçün istifadə etmək olmaz. Azərbaycanda din siyasətə qarışmır, ikinci bir tərəfdən də, bəzi ölkələr Azərbaycanda din amilindən istifadə edərək qarışıqlıq salmağa çalışırlar".

F.Quliyev bildirib ki, hakimiyyət tolerant davranış nümayiş etdirdi, "Milli Şura"ya mitinq keçirmək üçün meydan verdi: "Amma mitinqdə dövlətçilik əleyhinə şüarlar səsləndirmək o deməkdir ki, onlar fürsətdən istifadə edərək başqa məsələləri və istəkləri ortaya qoymaq, həm də təkcə öz istəklərini yox, başqalarının da istəklərini ortaya qoymaq istəyirlər. Ölkə rəhbərliyi istəsəydi, bu mitinqə icazə verməzdi, ancaq verdi. Yəni hər kəs deyir ki, buyurun, sivil qaydada mübarizə aparın, fikirlərinizi paylaşın. Amma çox təəssüflər olsun ki, guya siyasətlə məşğul olan bu adamlar hər addımda ölkə əleyhinə kəmfürsətlik edirlər və bu da təbii ki, heç zaman cəmiyyət tərəfindən qəbul edilmir".

**Rəfiqə HÜSEYNOVA**

---

**TƏRS BAXIŞ**

# Xədicə İsmayıl Əli Kərimlini necə çıxdaş edir?

## *AXCP funksioneri: "Qərb" dairələri "mükafatlar" adı ilə maliyyəni, məhz Xədicə İsmayıla ötürür"*

**AXCP sədri Əli Kərimli ilə özünü gah "araşdırmaçı jurnalist", gah da "hüquq müdafiəçisi" kimi ictimai rəyə sırıyan Xədicə İsmayıl arasında yaranmış qarşıdurma yenidən qızışıb. Belə ki, "siyasi məhbus" məsələsi üzərində bir-birilərinə qənim kəsilmiş bu adamlar, əslində, bütün zamanlarda üzdə "müttəfiq" olsalar da, maraqları davamlı şəkildə ziddiyyət təşkil edib. Əbəs yerə deyil ki, X.İsmayıl artıq neçənci dəfədir ki, "Milli Şura"nın keçirdiyi mitinqləri boykot edir.**



### "Araşdırmaçı jurnalist"in cəbhəçilər tərəfindən sosial şəbəkələrdə təhqir olunmasının arxasında bu faktor dayanır

Digər tərəfdən, o da sirr deyil ki, istər Ə.Kərimli, istərsə də X.İsmayıl Azərbaycan əleyhinə fəaliyyət göstərən ayrı-ayrı təşkilatlardan azsaylı tərəfdarlarını itirməmək üçün kifayət qədər pullar alıblar. Eyni proses hazırda da davam etməkdədir. Proseslər qızışdıqca qarşıdurmalar, söz atışmaları daha da şiddətli hala keçir. Yəni tərəflər xaricdən gələn pullara nəzarət və həmin pullar üzərində səlahiyyət sahibi olmaq niyyətində olduqlarını gizlətmirlər. Sözügedən məsələdə isə X.İsmayıl Ə.Kərimlini üstələməkdədir. Ona görə də, son zamanlar "araşdırmaçı jurnalist"in cəbhəçilər tərəfindən sosial şəbəkələrdə təhqir olunmasının arxasında bu faktor dayanır. Ə.Kərimliyə isə uzağı "Milli Şura" adından uğursuz mitinqlər keçirmək qalır. Aldığı qonorarları isə Cəmil Həsənli, Gültəkin Hacıbəyli, İbrahim İbrahimli və sairlərlə bölüşməyə məcbur olur. Daha bir amil də budur ki, xarici təşkilatlarla daha tez-tez təmaslarda olan X.İsmayıl bacardığı qədər Ə.Kərimlini "vurur", gözdən salmağa çalışır və bu da AXCP sədrinin ona uduzması ilə nəticəsini tapmaqdadır.

### AXCP sədri Qərb təşkilatları qarşısında aktuallığını itirib

Bu arada vaxtilə Ə.Kərimlinin, AXCP-sində fəaliyyət göstərmiş, hazırda isə həmin partiyaya alternativ olaraq yaradılmış Xalq Cəbhəsi Partiyasında sədr müavini kimi fəaliyyət göstərən Məhəmməd Əsədullazadənin fikirləri maraq doğurur. O, sözügedən məsələ ilə bağlı mətbuata açıqlamasında bildirib ki, Qərbin müəyyən dairələri X.İsmayıla daha çox reveranslar edir, nəinki Ə.Kərimliyə. Buna misal kimi X.İsmayılın ardıcıl olaraq aldığı və "mükafat" adı ilə əvəzləndiyi qrantı göstərmək mümkündür. "Qərb dairələri "mükafat"lar adı ilə maliyyəni, məhz X.İsmayıla ötürür"-deyə qeyd edən alternativ AXCP-nin funksioneri, həmçinin, bildirib ki, burada "NİDA" hərəkatının da adı çəkilir: "Xədicənin "NİDA"nı nəzarətə götürməsidən də söz açılır. Hesab edirəm ki, "Yurd" sədri də bundan narahatdır və çalışır ki, rıçaqlar öz əlində olsun. Ondan əlavə, X.İsmayıl daima Ə.Kərimli üçün Qərbdə problemlər yarada bilər".

Beləliklə, Ə.Kərimli xarici dairələr baxımından X.İsmayıla uduzduğunun fərqinə varmağa başlayıb və ona görə də, mitinqlərə güc verib. Fəqət, mitinqlərin ölgünləşməsi, xalqın, ümumiyyətlə, bu fərdə dəstək verməməsi ilə yanaşı, AXCP-yə qarşı kəskin antipatiyası Ə.Kərimlinin siyasi arenadan çıxdaş olması prosesinə təkan verir. Yəni AXCP sədri Qərb təşkilatları qarşısında aktuallığını itirib.

**Rövşən RƏSULOV**

# Azərbaycanda milli ənənələr və bayramlar içərisində Novruz bayramının yeri

***Bu gün Azərbaycanda Novruz bayramı, rəsmi olaraq, hər il martın 21-də keçirilir və həmin gün iş günü hesab olunmur. Novruzun birinci günü yuxudan erkən durub çayda və ya bulaq başında yuyunmaq lazımdır. Su təmizlik və yenilik rəmzidir. Novruz bayramını "milli bayram" və "xalq bayramı" kimi qiymətləndirən Ulu Öndər Heydər Əliyev deyirdi: "Novruz bizim ən qədim milli bayramımızdır. O, xalq bayramıdır. Novruz bayramı insanları, xalqımızı həmişə sevindirib, ən çətin anlarda, ən ağır günlərdə də onlarda xoş və nikbin əhvali-ruhiyyə yaradıbdır. Ona görə də, bayram hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu, eyni zamanda, hər bir şəxsin qəlbinin bayramıdır, hər bir ailənin bayramıdır. Novruz bayramı həmişə xalqımızı birləşdirən, bir yerə yığan, insanları bir-birilə barışdıran bayram olubdur. Ona görə də, insanlar bu bayramı sevirlər.***

Novruz bayramı insanlarda həmişə xoş əhvali-ruhiyyə yaradır, milli ruhu yüksəldir, vətənpərvərlik hissiyyatlarını daha da möhkəmləndirir və hər bir insanı vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir. Novruz təbiətin oyanması, saf duyğuların, ülvi niyyətlərin, xoş arzuların çin olduğu günüdür. Novruz bayramı bizim xalqımızın qədim milli bayramıdır. Novruz bayramı hər bir azərbaycanlının qəlbinin bayramıdır, hər bir insanın, ailənin bayramıdır, bizim müstəqil Azərbaycan torpağının, Azərbaycan Respublikasının bayramıdır. Novruz dostluq, mehribanlıq, mədəniyyət, mənəviyyat bayramıdır, xalqımızın qəhrəmanlığını, rəşadətini, şücaətini nümayiş etdirən bayramdır. Novruz bayramı bizim xalqımızı bir-birilə həmişə daha da sıx birləşdirib, insanlarımız arasında dostluq, mehribanlıq əlaqələri yaradıb, insanları bir-birinə dost edibdir. Novruz bayramı bu gün müstəqil Azərbaycanın həyatında gedən ictimai-siyasi, sosial-iqtisadi proseslər dövründə xalqımızı həmrəy edən, birləşdirən, yetkin edən bayramdır".

Novruz bayramında hamı birbirini qonaq dəvət edir və şirniyyata qonaq edir. Novruzda şirin yemək yeyilməlidir, ya bal, o da olmasa, qənd yemək lazımdır. Sonra "şər ruhlardan" xilas olmağın rəmzi olan ətirli tüstü iyləmək lazımdır. Bayram günü xüsusi gündür. Simvolun üstündə "s" hərfilə başlayan yeddi yemək növü olmalıdır:

1. Süd;
2. Sirkə;
3. Səməni;
4. Səbzi;
5. Südlüaş və s.

Bundan başqa stolun üstündə güzgü, şam və boyadılmış yumurta qoyulur. Bütün qoyulanların rəmzi mənası olur:

- şam - insanları şər ruhlardan qoruyan odun rəmzidir.
- yumurta və güzgü köhnə ilin başa çatması, yeni ilin gəlməsinin rəmzidir.

Novruz bayramı azərbaycanlıların ən qədim və ən gözəl bayramlarından biridir. Novruz bayramına böyük əhəmiyyət verən Ulu Öndər Heydər Əliyev deyirdi: "Novruz bayramı bizim bütün bayramlarımızdan əzizidir. Novruz bayramı heç bir tarixi hadisə, yaxud heç bir şəxsiyyətin adı ilə, onun fəaliyyətilə bağlı deyildir. Bu bayram təbiətin qanunları ilə, kainatın qanunları ilə əlaqədar olan bir bayramdar. Gündüz ilə gecənin bərabərləşməsi günü - baharın ilk günü Novruz bayramıdır. Bunlara görə Novruz bayramı bir çox başqa bayramlardan fərqlənir və bu, bizim, məhz Azərbaycan xalqının bayramıdır. Qədim zamanlardan bəri və bu gün də bu bayramı ən çox sevən, ən uca tutan Azərbaycan xalqıdır. Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir. Zəngin müsəlman sivilizasiyasının nailiyyətləri bir sıra hallarda Azərbaycan alimlərinin, fikir adamlarının səyi nəticəsində, Qərbin və bütün insanlığın mənəvi sərvətinə çevrilmişdir. Novruzun hər dəfə keçirilməsi müstəqillik və dövlətçilik prinsiplərimizin təntənəsinə olan inamı daha da artırır. Novruz bayram olmaqla yanaşı, həm də Azərbaycanın müstəqillik və dövlətçilik rəmzidir. Əsrlər boyu Novruz Azərbaycan xalqı üçün barış və saf niyyətlər bayramı olmuşdur. Novruz bayramı hər bir azərbaycanlı üçün əziz bir bayramdır. Bu, hər bir insanın, hər bir vətəndaşın bayramıdır, ulu babalarımızdan, əsrlərdən-əsrlərə keçib gəlmiş, əziz bayramdır. Bu bayram həm də adi insan bayramıdır. Bu bayramı başqa bayramlardan fərqləndirən cəhət bundan ibarətdir".

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev "Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik"ində demişdir: "Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə xoş arzularımı yetirirəm.

Novruz xalqımız tərəfindən qədim zamanlardan həmişə barışıq, dostluq, səmimiyyət, təmizlik və yeniləşmə əhvali-ruhiyyəsi yaradan Bahar bayramı kimi qeyd olunub. Novruz təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərin, xoş arzuların yarandığı bir bayram, insanla təbiətin bütövləşməsinin, harmoniyasının təcəssümü hesab olunur. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Azərbaycanın müstəqillik əldə etməsindən sonra Novruz bayramı dövlət səviyyəsində qeyd olunmağa başladı ki, bu da tarixi köklərə qayıdışın, milli-mənəvi dəyərlərə qayğının güclənməsini şərtləndirdi.

Xüsusi qeyd etməyə dəyər ki, Bahar bayramı kimi Novruz təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində böyük təntənə ilə qeyd olunur. Bu bayrama hər yerdə yenilik, nikbinlik, arzuların həyata keçməsi və həmrəylik vasitəsi kimi baxırlar.

Novruz bayramını hər kəsin öz ev-eşiyində, ocağı başında qeyd etməsi xalqımızın gözəl adətlərindəndir. Təəssüflər olsun ki, torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmiş həmvətənlərimiz bayramı bu il də öz doğma yurdlarında qarşılaya bilmirlər. Əminəm ki, ata-baba ocağından didərgin düşmüş soydaşlarımızın bu bayramı öz doğma torpaqlarında qeyd edəcəyi gün uzaqda deyildir. Mən bayram münasibətilə qaçqın və məcburi köçkünləri, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda öz sağlamlığını itirmiş və əlil olmuş insanları, şəhid ailələrini, habelə, sərhədlərimizin keşiyində duran, ölkəmizin müdafiəsini təmin edən əsgər və zabitləri təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Novruz həm də xarici ölkələrdə yaşayan azərbaycanlıların milli birlik bayramıdır. Ölkə hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılar bu bayramı böyük sevinc və qürurla qeyd edirlər. Novruz şənliklərində yaranan xoş ünsiyyət onları həm bir-biri ilə, həm də doğma Azərbaycanla daha sıx bağlayır, hər bir soydaşımızda milli mənlik şüurunu, azərbaycançılıq hisslərini və duyğularını gücləndirir. Bu bayram şənlikləri azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Bu əziz bayram günündə hər bir azərbaycanlıya, hər bir ölkə vətəndaşına, onların ailələrinə bir daha səadət, firavanlıq, cansağlığı arzu edirəm və uğurlar diləyirəm".

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Novruz xalqımız tərəfindən qədim zamanlardan həmişə barışıq, dostluq, səmimiyyət, təmizlik və yeniləşmə əhvali-ruhiyyəsi yaradan Bahar bayramı kimi qeyd olunub. Novruz təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərin, xoş arzuların yarandığı bir bayram, insanla təbiətin bütövləşməsinin, harmoniyasının təcəssümü hesab olunur.






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Son səhifə 11 oktyabr

## Hansı qadın peşələri döş xərçənginə səbəb olur?



Kanada alimləri iri miqyaslı araşdırmalar apararaq hansı peşələrin qadınlarda döş xərçəngi xəstəliyinin əmələ gəlməsinə səbəb ola biləcəyini açıqladılar. Məlum oldu ki, qadın sağlamlığı üçün ən ziyanlı peşələr kanserogen və kimyəvi maddələrlə əlaqəli olan peşələrdir. Belə ki, bu birinci növbədə avtomobil istehsalı, konserv sənayesi və kənd təsərüfatı sahələri ilə əlaqəli olan peşələrdir. Fox News yazır ki, tibb işçilərinin sözlərinə görə, ziyanlı istehsal sahələrində 10 il çalışan qadınların bu xəstəliyə tutulma ehtimalı 42% artır.

Risk qrupuna həmçinin kazino və barlarda çalışan zəif cinsin nümayəndələri də daxildir.Gecə həyat tərzi və passiv siqaret çəkmə nəticəsində onkoloji şişlərin əmələ gəlməsi riski bir neçə dəfə artır.

## Diqqət: Meyvə sularının tərkibindən xəbərdarsınız?



İngiltərədə yerli mətbuatda meyvə sularıyla bağlı bəzi faktlar gündəmə gətirilib. İçərisində kifayət qədər şəkər olan bu meyvə sularının düzgün saxlanmasının vacibliyini qeyd edən qəzetlər, insanları daha diqqətli olmağa çağırıb. Bangor Universitetində aparılan araşdırma nəticəsində məlum olub ki, artıq kilodan və bəzi xəstəliklərdən əziyyət çəkən insanlarda içkilərə qarşı dad bilmə həssaslıqları azalır, onlarda şəkərə qarşı meyl yaranır.

Eyni universitetin sağlamlıq sahəsində çalışan Dr. Hans-Peter Kubisin apardığı digər araşdırmaya görə bu cür meyvə şirələrin sağlamlıq üçün çox təhlükəlidir. Diabetli insanlara mənfi təsir xüsusi vurğulanıb. Araşdırma artıq çəkidən əziyyət çəkən insanların meyvə şirələri qəbulundan sonra daha çox şirniyyatlara meyllikləri isə yalnız 4 həftə ərzində xüsusi rejimdən sonra nizama sala biləcəyini göstərib. İnsanların kalorisiz içkilərə üstünlük vermələrinin faydalı oluğunu deyən professor uşaqları şəkərlə bol olan meyvə şirələrindən qorumağı təklif edib.

## "Arsenal" Arda Turanı transfer etmək istəyir



Arda Turan qış transfer pəncərəsində "Barselona"dan ayrıla bilər. SİA-nın məlumatına görə, "Arsenal" türk yarımmüdafiəçini transfer etmək istəyir. Bununla bağlı iki klub arasında danışıqlara start verilib. Kataloniya təmsilçisinin baş məşqçisi Ernesto Valverdenin əsas heyətdə düşünmədiyi 30 yaşlı oyunçunu satmağa razılıq verəcəyi bildirilib. Qeyd edək ki, A.Turanın "Barsa" ilə müqaviləsi 2019-cu ilin yayında başa çatır. O, bu mövsüm heç bir matçda oynamayıb.

## "Qızıl top" mükafatına namizəd 30 futbolçunun adı açıqlanıb



"France Football" jurnalı 2017-ci ilin yekunlarına əsasən, "Qızıl top"a 30 namizəd futbolçunun adını açıqlayıb. AZƏRTAC xəbər verir ki, namizədlərin ən çoxu İspaniyanın "Real Madrid" klubundandır. Mükafata namizəd oyunçuların adları aşağıdakılardır:

Lionel Messi ("Barselona", Argentina), Neymar (PSJ, Braziliya), Luis Suares ("Barselona", Uruqvay), Kriştianu Ronaldu ("Real Madrid", Portuqaliya), Serxio Ramos ("Real Madrid", İspaniya), Marselo ("Real Madrid", Braziliya), Luka Modriç ("Real Madrid", Xorvatiya), Kərim Benzema ("Real Madrid", İspaniya), Paulo Dibala ("Yuventus", Argentina), Eden Azar ("Çelsi", Belçika), Leonardo Bonuççi ("Milan", İtaliya), İsko ("Real Madrid", İspaniya), Toni Kroos ("Real Madrid", Almaniya), Kilian Mbappe (PSJ, Fransa), Canluici Buffon ("Yuventus", İtaliya), Pyer-Emerik Obameyanq ("Borussiya" Dortmund, Almaniya), Edinson Kavani (PSJ, Fransa), Robert Levandovski ("Bavariya", Polşa), Mats Hummels ("Bavariya", Almaniya), Antuan Qrizmann ("Atletiko", Fransa), Sadio Mane ("Liverpul", Seneqal), Radamel Falkao ("Monako", Kolumbiya), Kevin de Breyne ("Mançester Siti", Belçika), David de Xea ("Mançester Yunayted", İspaniya), Harri Keyn ("Tottenhem", İngiltərə), Edin Ceko ("Roma", Bosniya və Herseqovina), Yan Oblak ("Atletiko", Sloveniya), Filippe Koutinyo ("Liverpul", Braziliya), Dris Martens ("Napoli", Belçika) və NQolo Kante ("Çelsi", Fransa).

Qeyd edək ki, 1956-2009-cu illərdə "France Football" jurnalı dünyanın hər yerindən jurnalistlərin səsverməsinin nəticələrinə görə "Qızıl top"u ən yaxşı futbolçuya təqdim edib. 2010-2015-ci illərdə mükafat FIFA ilə birgə təqdim olunub. Lakin keçən ildən etibarən "France Football" jurnalı bu mükafatı tək təqdim etmək hüququnu bərpa edib. "Qızıl top"un hazırkı sahibi "Real" və Portuqaliya yığmasının hücumçusu Kriştianu Ronaldudur.

## Azərbaycan idmançısı Dünya Kubokunda bürünc medal qazanıb



Batut gimnastikası üzrə yığma komandamızın üzvləri İspaniyanın Valladolid şəhərində keçirilən Dünya Kubokunda iştirak ediblər. Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, turnirdə ölkəmizi Svetlana Makştaryova, Veronika Zemlyanaya, İlya Qrişunin, Oleq Piunov, Ruslan Ağamirov və Mixail Malkin təmsil ediblər.

Bir neçə gün əvvəl Portuqaliyada keçirilən Dünya Kubokunun qızıl medalına sahib olan Mixail bu turnirdə də uğurlu çıxışı ilə yadda qalıb. Gimnastımızın tambling cığırındakı hərəkətlərinin icrası hakimlər tərəfindən 70,900 xalla dəyərləndirilib. Bu isə ona yarışların bürünc medalını qazandırıb.

## PSJ Anxel Di Mariyanı Çin klubuna satacaq?



Fransanın PSJ futbol komandası yarımmüdafiəçi Anxel Di Mariyanı Çin klubuna satmaq istəyir. AZƏRTAC "sport.es" saytına istinadla xəbər verir ki, klub rəhbərliyi futbolçunun yay transfer dövründə "Barselona"ya keçidinin alınmamasından təəssüfləndiyini bildirib. PSJ futbolçunun agentinə onun üçün Çində klub axtarmağa və danışıqlar aparmağa icazə verib. Qeyd edək ki, əvvəllər PSJ-nin futbolçunu maliyyə "fair-play"inə görə satdığı bildirilirdi.

## Qaret Beyl "Real Madrid"dən ayrıla bilər



Yarımmüdafiəçi Qaret Beyl "Real Madrid" futbol klubundan ayrıla bilər. "El Confidencial" qəzeti xəbər verir ki, Madrid klubunun baş məşqçisi Zinəddin Zidan və prezidenti Florentino Peres futbolçunun mütəmadi olaraq zədələnməsindən narahat olduqlarını bildiriblər. Zidan futbolçunu heyətdən kənarlaşdırmağa razı olsa da, Peres onunla bağlı yekun qərarını açıqlamayıb. Ancaq Peresin də baş məşqçi ilə həmfikir olacağı gözlənilir. Qeyd edək ki, "Mançester Yunayted" Beyli heyətinə qatmaqda maraqlıdır.

## ELAN


Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar Ümumi Yığıncağı 11.11.2017-ci il tarixdə saat 12:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi ilə Bankın Baş ofisində tanış ola bilərlər.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Mehtiyeva Məleykə Subut qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



**Baş redaktor:** Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:** Valeh Məhərrəmli, Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 5500